www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Gənc yazarın e-kitabı”

Nigar İsmayılqızı

# Sevgi deyilmi

*Gənc şairə Nigar İsmayıl qızı Quliyeva 1989-cu il aprel ayının 29-da Bakı şəhərində anadan olub. 2007-ci ildə Bakı şəhəri Nərimanov rayonu 82 saylı orta məktəbi, 2012-ci ildə isə Elm və Təhsil Mərkəzi - “Təfəkkür” Universitetinin filologiya fakültəsini bitirb. İlk dəfə olaraq 2002-ci ildə öz daxili aləmini, duyğularını, hisslərini qələm ilə dilə gətirməyə başlayıb, dövri mətbuat və İnternet ədəbi saytlarında mütəmadi poetik nümunələri işıq üzü görür...*

2012

Yeni Yazarlar və Sənətçilər Qurumu. e-nəşr N 14 (104 - 2012)

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

**Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumu ilə http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Gənc yazarların İnternet resurslarında e-kitabla iştirakı təlimi" ("Gənc yazarların maarifləndirilməsi. İnformasiya texnologiyaları istifadəsinin inkişafı" altbölümü) kulturoloji-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayılır.**

**Elektron Kitab N 14**

**YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 14 (104 - 2012)**

**Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:**

**Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında Azərbaycan Gənclər Fondu:**

**http://youthfoundation.az**

Nigar İsmayılqızı

# Sevgi deyilmi

*Gənc şairə Nigar İsmayıl qızı Quliyeva 1989-cu il aprel ayının 29-da Bakı şəhərində anadan olub. 2007-ci ildə Bakı şəhəri Nərimanov rayonu 82 saylı orta məktəbi, 2012-ci ildə isə Elm və Təhsil Mərkəzi - "Təfəkkür" Universitetinin filologiya fakültəsini bitirb. İlk dəfə olaraq 2002-ci ildə öz daxili aləmini, duyğularını, hisslərini qələm ilə dilə gətirməyə başlayıb, dövri mətbuat və İnternet ədəbi saytlarında mütəmadi poetik nümunələri işıq üzü görür...*

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 14 (104 - 2012)

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2012


Nigar İsmayılqızı
Sevgi deyilmi
NİGAR İSMAYILQIZI
SEVGİ DEYİLMİ

Nigar İsmayılqızı

# Sevgi deyilmi

**"Elm və təhsil"**

**Bakı-2012**

*Redaktor:*

**Şəfəq Sahibli**

**Nigar İsmayılqızı. Sevgi deyilmi.**

**Bakı, "Elm və təhsil", 2012, 160 səh.**

Şeirlərdə Nigarın iç dünyasının laciverd duyğuları sezilir. Yazdıqlarının kitab şəklində daha geniş auditoriyaya çatdırmaq cəhdi ilk növbədə bu hissin ani bir şıltaqlıq olmadığını sübut etməkdir. Bu, ana, vətən, sevgi kimi kəlmələr haqda düşüncələrini məsum misralara düzən gənc xanımın ilk kitabıdır.

$İ\frac{4702000000}{N098-2012}$ ***qrifli nəşr***

**© Nigar İsmayılqızı, 2012**

**© «Elm və təhsil», 2012**

*Məni tanımaqçün şeirimi oxu,*

*Sevgiyə aiddir kəlməmin çoxu,*

*Bir zaman dəymişdi sevginin oxu.*

*Nizəni çıxartdım artıq sinəmdən,*

*Nə olsun, qan axır hələ yerindən.*



# ÖN SÖZ

Gənc şairə Nigar İsmayılqızının şeirləri yazı masamın üstündədir. Şeirləri o özü mənə təqdim edərək ilk kitabına müqəddimə yazmağımı istəmişdir.

Şeirlərlə tanış oldum və çox xoşuma gəldi. Onlarda poetik qığılcımlar görünür. Şeirlərin əsas leytmotivi poeziyamızın əbədi, əzəli mövzusu olan məhəbbətdir. Belə ki, kitaba daxil olacaq şeirlərin böyük hissəsini məhəbbət mövzusu təşkil edir.

Nigar İsmayılqızı kitabını eyniadlı şeiri ilə "Sevgi deyilmi " adlandırıb.

*Bəzən çox susmuşam sual gələndə,*

*Sevgisiz olarmı insan ömrü də?*

*Nə olar, siz deyin, bunu mənə də,*

*Həyatın özü də sevgi deyilmi?!*

Sevgi deyilmi bədii sualdır. İstər-istəməz mərhum xalq şairimiz, ustad Hüseyn Arifin "Şeir deyilmi" şeirinin təsiri burada özünü büruzə verir. Nigar filoloji təhsil alıb. Onda universitet illərində filoloji təhsil qazanmaqla eyni zamanda bədii təfəkkür formalaşıb. Yeniyetmə yaşlarından şeir yazmağa başlayan Nigar şübhəsiz ki, məktəb illərində də klassikləri mütaliə edib, təbi olması ilə yanaşı onda klassik ənənə üzərində poetik təsəvvür də formalaşıb. O, həyatdakı gözəlliklərə, bu məhəbbət qığılcımlarına özünün sevgi deyilmi bədii sualı ilə cavab tapmağa çalışır. Şeir bədii poetik cəhətdən mükəmməldir.

Nigar vətənimizlə, bu torpaqda doğulmağı ilə, Azərbaycanımızla fəxr edir. Vətəninə, torpağına bu gənc şairə bir soydaş kimi qurban olur. O, böyük siyasi xadim, ümummilli lider, ulu öndər Heydər Əliyevin məşhur "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!" aforizmindən ilhamlanaraq "Fəxr edirəm" şeirini yazıb.

*Vətənimin hər daşına, torpağına qurbanam mən,*

*Ağ birçəkli anaların qeyrətinə heyranam mən,*

*Şəhid olmuş igidlərin hünərindən güc almışam,*

*Fəxr edirəm, bax, bu elin, bu torpağın qızıyam mən.*

Bu şeir insanın qəlbini riqqətə gətirən gözəl poetik bir nümunədir. Şəxsən mən tədqiqatçı alim, şair, ədəbiyyatşünas və bir qələm adamı kimi bu şeirə heyran oldum.

İsmayılqızının şeirləri sırasında "Ana", Abşeronumuzu vəsf edən "Doğma Bakım" kimi şeirlərə də rast gəlinir. Şübhəsiz ki, bunlar da məhəbbətin təzahürüdür.

Nigarın ana mövzusunda yazdığı şeirinə müraciət etmək istəyirəm. Elə bir şair yoxdur ki, bizi dünyaya gətirən analarımızı vəsf etməsin. Təvazökarlıqdan uzaq olsa da mən ana mövzusunda şöhrət tapmış bir qələm adamı kimi, oxucular arasında "Anam mənim" mahnısının müəllifi olaraq, şairənin "Ana " şeirini çox bəyəndim. Müqəddəs ilahi varlığa yazılmış bu şeir bədii poetik cəhətdən mükəmməldir, orijinaldır.

*Elə hey sevgidən ancaq yazmışam,*

*Ən böyük sevgimi mən unutmuşam,*

*Dilimdə bir nağmə susub qalmışam,*

*Ana, o nağməni bağışla mənə!*

Vətənin tərənnümü elə bir yaradıcılıq yoxdur ki, orada yer almasın. Nigar da doğulub boya başa çatdığı, suyunu içdiyi, havasını udduğu, dalanlarını sevdiyi Bakımızı tərənnüm edib. Bakıya məhəbbət vahid Azərbaycanımıza məhəbbətdir. Unudulmaz xalq şairimiz Nəbi Xəzinin sözləri ilə desək "...sən hələ nə görmüsən ki, ay Bakını görməyən".

*Hər bir dalanında min bir xatirə,*

*Hər hasar daşında vicdandan kölgə,*

*Salxım söyüdlərin edərkən səcdə,*

*Ecazkar səhnəsən, ey doğma Bakım!*

*Xəzrin, gilavarın başqa bir aləm,*

*Bir söz tapmıram ki, dəyərin deyəm,*

*Çatmaz təsvirinə minlərlə qələm,*

*Sonsuz bir əsərsən, ey doğma Bakım!*

Qədim zamanlardan yazıçılar, şairlər Bakımızı tərənnüm ediblər. Bir az mübağilə görünsə də Nigar həqiqəti etiraf edir. Bildirir ki, Bakımızı minlərlə qələm vəsf etsə də, yenə onun gözəlliyini olduğu kimi çatdırmaq çətindir. Hesab edirəm ki, bu şeiri ilə Nigar özünü minlərlə qələm sahibinin siyahısına daxil etmiş və Bakını tərənnüm edən "min birinci " qələm adamıdır.

Şeirlər içərisində "Heç zaman özümü şair sanmadım" adlı şeir də diqqətimi cəlb etdi. Fikrimcə bu şeir Nigarın poetik etirafı və eyni zamanda bədii təvazökarlığıdır. Mən şeirlərlə tanış olan zaman Nigara şair deyə müraciət etdim. O özünü şair sanmadığını deyir, amma əslində şairdir.

*Heç zaman özümü şair sanmadım,*

*Qəlbimdən gələni yazıram, dostum!*

*Ağ vərəqlər, qələm tək sirdaşımdır,*

*Gizli hisslərimi yazıram dostum!*

Nigar İsmayılqızı ədəbiyyatımıza yeni qədəmlərini qoyur. Qəlbinin poetik çırpıntılarını qələmə köçürür və bu poetik çırpıntılar bədii yaradıcılığında təzahür edir. Şübhəsiz ki, onun yaradıcılığında iradlar da tapmaq olar. Amma gənc şairəyə xeyir dua diləmək lazımdır. Filoloji təhsil alıb, bədii təfəkkürü var, gələcəkdə öz nöqsanlarını püxtələşə-püxtələşə, həyat təcrübəsi ilə poetik təsəvvürü genişləndikcə özü islah edəcək.

Hal hazırda poeziyamızda istedadlı gənc qələm adamları var. Nigar da öz orijinal deyimi, üslubu ilə diqqəti cəlb edir. Postmodernizm adı altında poetik düşüncələrlə yazan şairlər içərisində onun klassik poeziyamıza söykənən və öz sözünü deyən şairə olacağına inanıram. Narahat olma, sənin istedadın var. Mən inanıram ki, bizim ağsaqqallar, orta nəsil səni dəstəkləyəcək, gənc qələmdaşların da sənə həyan duracaqlar. Çalış ki, heç zaman ruhdan düşməyəsən, uca zirvələrə ucalasan və daha da gözəl şeirlər yazasan. Bu çağdaş ədəbiyyatımızı öz bədii poetik nümunələrinlə bəzəyəsən.

Mən bu müqəddimədə, bu ön sözdə ancaq xoş sözlər demək istəyirəm ki, gənc şairəni ruhlandırım. Çünki mən inanıram ki, Nigar Azərbaycan poeziyasında öz dəsti xətti ilə seçilən bir şairə kimi ədəbiyyat tariximizə daxil olacaq.

Nigara ilk xeyir duanı mən verirəm və inanıram ki, onun daha da çox şeirləri dərc olunacaq. Nəğməkar şair kimi sonda onu da qeyd etmək istəyirəm ki, bu şeirlərdə mən bir nəğmə ətri, musiqiyə düşərlilik gördüm. Sənə əbədi ədəbi şöhrət arzulayıram. Həmişə sevəsən, seviləsən.



**Vüqar Əhməd**

*Şair, ədəbiyyatşünas,*

*filologiya elmləri doktoru, professor*

*31/08/2012*

## FƏXR EDİRƏM

***"Mən həmişə fəxr etmişəm,***

***bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!"***

*Heydər Əliyev*

Vətənimin hər daşına, torpağına qurbanam mən,

Ağ birçəkli anaların qeyrətinə heyranam mən,

Şəhid olmuş igidlərin hünərindən güc almışam,

Fəxr edirəm, bax, bu elin, bu torpağın qızıyam mən.

Vətən mənim, torpaq mənim, var bir azad gələcəyim,

Günü gündən artır sənə eşqim, sevgim, həm hörmətim.

Sənsən mənim ilk beşiyim, son mənzilim,

Fəxr edirəm, bax, bu elin, bu torpağın qızıyam mən.

İçimdəki bu güvəni, bu inamı sənə borclu,

Yağıların görürəm ki, bağlanıbdır əli, qolu.

Səninlədir sabahlarım, səninlədir inam yolu,

Fəxr edirəm, bax, bu elin, bu torpağın qızıyam mən.

***23. 08. 2012***

## SEVGİ DEYİLMİ

Sevgi yoxdur deyib keçməyin əsla,

Tanrının varlığı sevgi deyilmi?!

Bir hicab altında süzülən baxış,

Azanın sədası sevgi deyilmi?!

Həsrətlə yollara boylanan gözlər,

Titrək dillər ilə deyilən sözlər,

Sevirəm sözündən allanan üzlər,

Bütün deyilənlər sevgi deyilmi?!

Göydə qanad çalan iki göyərçin,

Eşqə şahid olan qumlu sahilin

Dalğası çırpınır tək sahil üçün,

Dənizin dalğası sevgi deyilmi?!

Bəzən çox susmuşam sual gələndə,

Sevgisiz olarmı insan ömrü də?

Nə olar, siz deyin, bunu mənə də,

Həyatın özü də sevgi deyilmi?!

Sevgi var olubdur, var olacaq da!

Axı bu sevgidir bizi yaşadan.

Sevgi deyilmi, de, bu asiman da?!

Sevgini hədiyyə edib yaradan.

***15. 12. 2007***

## ANA MƏNƏ NAĞIL DANIŞ

*Vüqar Əhmədə ithaf edirəm.*

Ana, mənə nağıl danış,
Mışıl-mışıl yata bilim!
Açılmayan qapıları,
Sim-sim deyib aça bilim.

Ana, mənə nağıl danış,
Ağ atlı bir igid gəlsin!
Xəyallarım, arzularım
Onu görüb dilə gəlsin.

Ana, mənə nağıl danış,
Keçəl alsın şah qızını!
Məhəbbətə önəm verib,
Heçə saysın pul, paranı.

Ana, mənə nağıl danış,
Yeddi qapı aça bilim!
O yeddinci qapıda mən
Xoşbəxtliyi tapa bilim.

Ana, mənə nağıl danış,

Qoy, mən yatım qollarında!

Bu dünyada dinclik yoxdur,

Rahat olum qollarında.

***04.05.2012***

## QOY MƏNİ ANLATSIN BU ŞEİRLƏRİM

Sözlərim çox oldu, desəm düzünü,

Söyləyə bilmədim sözün düzünü.

Özüm öz içimdə üzdüm özümü,

Qoy, məni anlatsın bu şeirlərim!

Soruşan çox oldu - "niyə tək eşqdən?"...

"Yaz sən təbiətdən, yaz sən vətəndən!"

Danışa bilmədim onlara məndən,

Qoy, məni anlatsın bu şeirlərim!

Mən nə yazıramsa, elə də varam,

Nə şair, nə aşıq, nə də yazaram,

Mən elə özüməm, elə Nigaram,

Qoy, məni anlatsın bu şeirlərim!

***11.08.2012***

## MƏNİM İLHAMIM

Mənim ilhamım büllur göz yaşı,

Saf məhəbbətin qığılcımıdır.

Mənim ilhamım bir eşq savaşı,

Tər-təmiz sevginin sığırçınıdır.

Mənim ilhamım çağlayan sular,

Sonsuz dənizlərdir uca dağlardır.

Mənim ilhamım uçan durnalar,

Salxım söyüdlərin yarpaqlarıdır.

Mənim ilhamım anamın səsi,

Onun duruşu onun əlidir.

Mənim ilhamım dostlar, tanışlar,

Bitib tükənməyən eşq dənizidir.

Mənim ilhamım azan avazı,

Məsum insanların baxışlarıdır.

Mənim ilhamım səcdədə duran

Saleh insanların dualarıdır.

Mənim ilhamımdır bu sirrli dünya,

Kainat mənim üçün özü əsərdir.

Sevirəm cahanı hər şeyə rəğmən,

Həyat mənim üçün mənim qədərdir.

***12. 09. 2009***

## DOĞMA BAKIM

Hər bir dalanında min bir xatirə,
Hər hasar daşında vicdandan kölgə,
Salxım söyüdlərin edərkən səcdə,
Ecazkar səhnəsən, ey doğma Bakım!

Uca çinarların, tut ağacların,
Qara şanıların, əncir bağların,
Abşeronum kimi vəfalı yarın,
Vəfalı sirdaşsan ,ey doğma Bakım!

Xəzərin qoynunda sədəfdən inci,
Həm qəmi bizimdi, həm də sevinci,
Dərdlərə dərmandır min cür neməti,
Loğmansan, təbibsən ey, doğma Bakım!

Xəzrin, gilavarın başqa bir aləm,
Bir söz tapmıram ki, dəyərin deyəm,
Çatmaz təsvirinə minlərlə qələm,
Sonsuz bir əsərsən, ey doğma Bakım!

***01.10.2010***

## SƏN

Səhərimə nur saçıb gecəmi aydınlatdın,

Gecələr ulduz olub bir asiman yaratdın.

Mənə məndən yaxınsan, gizləməyə nə cürət,

Sən dağlara ucalıb mənə  zirvə yaratdın.

Sən şeirimin ilhamı, qələmimin dostusan,

Sən ömrümün baharı, nurlu həyat yolusan.

Məni məndən eyləyən sənə sözüm tükənməz,

Sən sevgimin nübarı, qanadısan, qolusan.

Sən mənimçün ucaltdın ecazkar eşq sarayı,

Sən ömrümə gətirdin tükənməz gül yağışı.

Sevginlə yaşayıram, nəfəsimin canısan.

Sən olmusan könlümün yaradıcı memarı.

Alınmaz qala etdin köksümdəki ürəyi,

Bil, səninlə bağlıdır Nigarın hər diləyi.

Səninçün yaşayıram yaşamaq səbəbimsən,

Axı, sənə vermişəm bu döyünən ürəyi.

***31.10.2009***

## TƏBİƏTDƏN

Gəl, bu təbiətin seyrinə çıxaq,
Görək, şahin necə dağları sevir.
Hələ bu bulağın gözündən baxaq,
Daşları, çınqılı  xəzinə bilir.

Gəl, baxaq söyüdün salxım qoluna,
Əyilib yerindən qopub sınmayıb.
Şikayət etməyir o, bu halına,
Nə külək, nə boran onu yıxmayıb.

Pərvanə bilsə də şam yandıracaq,
Yenə də başından ayrılmayıb ki!
O yanıb kül olur, şam da yanacaq.
Heç bir şey əbədi yaşamayır ki!

Bir də nəzərini sən sal dənizə,
O da aşiqdir öz dalğasına.
Nə qədər qəzəblə, nə qədər hirslə
Vursa da, incimir o qayasına.

Məcnun ceyran ilə etdi söhbəti,
Sirrli təbiət sirdaşı oldu.
Nə olsun sevirdi öz Leylisini,
Sonda bu torpaq məskəni oldu.

Biz təbiətdən həm yaşamağı,

Həm sevib hörməti öyrənməliyik.

Biz təbiətdən eşqə yanmağı,

Vəfa, etibarı götürməliyik.

***14.08.2012***

## BƏS NİYƏ MƏN SƏNİ SEVİRƏM HƏLƏ

Üz-üzə gələndə salam vermədim,

Yolumu dəyişdim, səni görməyim.

Sevgiyə, sevənə mən nifrət etdim,

Bəs niyə mən səni sevirəm hələ?!

Zəngini cavabsız qoydum, bilərək,

Unutmuşam deyə dilləndi ürək.

Fikirlər olubdur həzin bir külək,

Bəs niyə mən səni sevirəm hələ?!

Bu həyat yolları daşlı, kəsəkli,

Sözümün qalmayıb daha dəyəri.

Mənimçün sökülüb sevgi heykəli,

Bəs niyə mən səni sevirəm hələ?!

Həzin nəğmə kimi oxundun, bitdin,

Sevgi qatarımı yolda tərk etdin.

Məni əzablara sən düçar etdin,

Bəs niyə mən səni sevirəm hələ?!

***01.01.2009***

## ANA

Elə hey sevgidən ancaq yazmışam,

Ən böyük sevgimi mən unutmuşam,

Dilimdə bir  nəğmə susub qalmışam,

Ana, o nəğməni bağışla mənə!

İlk sevgim, ümidim, son pənahımsan!

Sən mənim dünyada təkcə varımsan.

Sinəmdə döyünən təkcə canımsan,

Ana, o canımı bağışla mənə!

Hər zaman olmusan mələyim mənim,

Göz yaşın olubdur səhvlərim mənim,

Ağrımı məndən çox çəkmisən mənim,

Ana, o ağrını bağışla mənə!

Mən sənə nigaran ürək vermişəm,

Görəsən haqqını verə bilmişəm?

Bilirəm, qarşında çox səhv etmişəm,

Ana, o səhvləri bağışla mənə!

Qədrini bilməyib xətrinə dəydim,

Sən mənə bir həyat, mənsə nə verdim?

Unutma, tək səni, tək səni sevdim,

Ana, o sevgini bağışla mənə!

Layiqdir ən uca şan-şöhrət sənə,

Səndən başqa sevgi yalandır mənə.

Mənmi səbəb oldum saçında dənə?

Ana, o dənləri bağışla mənə!

***19. 11. 2007***

## MƏHƏBBƏT

Nagüman qalmaqdan ürək çatladı,

Nəyə görə dedim, susub dayandı.

Xeyli suallarım cavabsız qaldı,

Bilməzdim, dinməyir laldır məhəbbət.

Uşaq tək aldandım hər an ömrümdə,

Günahım nə idi, düşdüm bu günə?

Görmədim xəyanət gözüm önündə,

Bilməzdim, görməyir kordur məhəbbət.

Həyatım arzuma görən yetərmi?

İstərəm yetirsin mənə pak sevgi.

Qulaqmı vermədi, ya eşitmədi?

Bilməzdim, duymayır kardır məhəbbət.

***16. 04. 2011***



## QURBAN OLDUĞUM

***M.Müşfiqə ithaf edirəm.***

Yenə də yuxuma gəlir gecələr,

O ürkək baxışlı, qurban olduğum.

Xəyalı çəkilmir gözüm önündən,

Həsrəti yandırır, qurban olduğum.

Hər sözdə, hər yerdə var xatirəsi,

Əlimdən getməyib əlinin izi.

Sanki bir meh kimi vurur nəfəsi,

Yadımdan çıxmayır, qurban olduğum.

Getdi gözümdən xəyala döndü,

Günəşim çıxmamış şəfəqim söndü.

Son sözü qəddimi yerlərə bükdü,

Ürək çiləndi, qurban olduğum!

***30. 08 .2009***

## İNCİDİM

Tək-tənha yaşayıb, tənha böyüdüm,
Yaşımdan on qat artığın gördüm,
Ağrıya-acıya kədərə dözdüm,
Tanrıda nə günah, bəxtdən incidim.

Çovğunda, boranda keçdi günlərim,
Yağışla, tufanla gəldi səhərim.
Gecikdi baharım, gülüm, gülşənim,
Şəbnəmdə nə günah, şehdən incidim.

İnandım, hər kəsi özüm tək sandım,
Günahlar içində batdım, bulandım,
Saxta hisslərə çox tez aldandım,
Busədə nə günah, ləbdən incidim.

Məhəbbət dünyada müqəddəs uca,
Gün gələr, səadət qonar qapıma.
Sevgi var, sevərəm yenə bir daha,
Sevgidə nə günah, səndən incidim.

***21. 01. 2008***

## MƏN SƏNİ SEVİRƏM MƏNİM HƏYATIM

Arzum, muradımsan, könül şahımsan,

Həyat ocağımın şahənşahısan.

Səadət bağımın  laləzarısan,

Mən səni sevirəm, mənim həyatım!

Əfsanə canlanıb baxışlarımda,

Sevincim əks olub göz yaşılarımda.

Sən bahar yaşatdın payız çağımda,

Mən səni sevirəm, mənim həyatım!

Səninlə bağlıdır bütün arzular,

Sən istə, durulsun çağlayan sular.

Qara gözündədir ülvi duyğular,

Mən səni sevirəm, mənim həyatım!

Xoşbəxtlik hissini sənə borcluyam,

Cazibən önündə aciz bir qulam,

Sən sonsuz kainat, mənsə ulduzam,

Mən səni sevirəm, mənim həyatım!

***08. 10. 2009***

## GECİKDİN

Səbəbsiz ayrıldın,

çox gec ayıldın.

İlk eşqi, sevgini, sən heçə saydın.

O gündən xəyanət qırdı qəddimi.

Yad gözlərində səni axtarib,

Yad əllərinə verdim əlimi.

Düşündüm, qisasdı, alıram səndən.

Amma...

O gündən həyatım tamam məhv oldu,

Fərqi yox idi, kim olur olsun,

Mənim üçün hər insan bütün sən oldu.

Yaşamım dəyişdi,

saatlar durdu.

Sanki o gündən əvvəl var idi.

Sonrası gözümdə bir nöqtə oldu.

O gün yadımdadı,

inan ki, hər şey

Nəfəsin, sözün, qırıq cümlələr,

hətta saatın dəqiqəsi də

O gün yadımdadı,

yadımda...

Məni yad əllərə buraxdığın gün,

Eşqimi, ruhumu alçaltdığın gün...

Mən qürurumu tapdalayanda,

sən qürurundan söhbət edirdin.

Bəs, niyə qapımı döyürsən bu gün?!

Hardadı əvvəlki o vüqar səndə?

O məğrur yerişin, dağ tək duruşun

Yoxsa, keçmişdə qalmısan bütün?

Məndə də köhnədən bir şey qalmayıb,

Nə ürkək baxışım,

Nə təmiz əlim,

Nə də ki, bir ümman çağlayan eşqim.

Əlvida!!!

Gecikdin,

sən çox gecikdin!!!

***27.10.2007***

## OVUCLARIM AĞLAYIR

Hər bitən sevgidə gözlər ağlayır,

Qərq olur gecədən sübhədək nəmə.

Ayrılan o gündən əllərim yanır,

Mənim ovuclarım ağlayır elə.

Nə dilim söz tutar, nə ağlım kəsər,

Nə taqət dayanar, nə ayaq gedər.

Bunların hamısı gün gələr, keçər,

Mənim ovuclarım ağlayar hələ.

***01.05.2008***



## EŞQİM

Dörd yanım riyadır, dörd yanım yalan,

Göz yaşı olub bu eşqdən qalan.

Görmədim sevgini ürəklə anan,

Yalan ürəklərdə yol oldu eşqim.

Gecələr sirdaşım, gecələr dostum,

Bilmədim, keçmişi necə unudum.

Ağlayıb, kədəri içimə uddum,

Soyuq gecələrdə titrədi eşqim.

O əğyar şeytan tək girdi canıma,

İblis tək qəhqəhə çəkdi yanımda.

Gülüşü qanqaldır, batdı ruhuma,

Saxta gülüşlərdə ağladı eşqim.

Tərtəmiz, pak duyğu idi məhəbbət,

İndi də, çəkirəm böyük xəcalət,

Sevgidə inanmaq məncə qəbahət,

Çirkab öpüşlərdə kirləndi eşqim.

***29.03.2009***

**DEMƏ MƏNƏ**

Demə mənə, sərin mehim.

De ki, mənə sabahımsan.

Demə mənə, çılğın eşqim

De ki, mənə halalımsan.

Demə mənə, sevgilinəm,

Bil, sevgilim Allahımdır!!!

Demə mənə, sahilinəm,

Bax, limanım tək anamdır.

Eşq mənim üçün çox ucadır,

Eşq mənim üçün əlçatmazdır,

Demə mənə, eşqdən danış.

Eşq mənim üçün tam başqadır.

***20. 08. 2012***

## SƏN MƏNƏ LAZIMSAN

Sən mənə lazımsan bir nəfəs kimi,

Necə ki, nəfəs mənə lazımdır.

Sən mənə lazımsan hava, su kimi,

Necə ki, səhralar suya möhtacdır.

Sən mənə lazımsan,

Necə bir körpə, ana südünün möhtacı olur.

Sən mənə lazımsan,

Qəfəsdəki quş əngin səmalara ehtiyac duyur.

Sən mənə lazımsan ana qoynu tək,

İsinim, qopmayım, heç ayrılmayım.

Sən mənə lazımsan dualarım tək,

Diz çöküm, yanından bir an  durmayım.

***20.01.2012***



## QARA GÖZLÜM

Günahlar səndədir, səhvlər səndədir,

Şübhələr bu eşqdə, bil, bəhanədir.

Göz yaşı axıtmaq artıq əbəsdir,

Ağlama, yaşları sil, qara gözlüm!

Qalmanı istədim, getməyi seçdin,

Məni ağlar qoyub, əğyara getdin.

Qayıtma, sən məni əzazil etdin,

Getmisən, qayıtma, get, qara gözlüm!

Ayrılıq təsəllim, sənsizlik kinim,

De, necə bir daha mən səni sevim?!

Əyilmə, əriməz buz tutan qəlbim,

Alçalma, qarşımda qalx, qara gözlüm!

Sayəndə yalandan and içən gördüm,

İllərlə uşaqdım, sənlə böyüdüm.

Sənli qapıları əbədi örtdüm,

Qınama sən məni, ay qara gözlüm!

***02. 11. 2009***

## MƏNİM TƏKCƏ VÜQARIM VAR

Sənin min sevincin, sənin min nəşən,

Sənin min sənətin, sənin min peşən,

Bəlkə də lap çoxdur dərdindən ölən,

Mənim təkcə gümanım var.

Uca səmalarda qanad çalmısan,

Sən zaman içində zaman tapmısan,

Gündə bir yar ilə eşq yaşamısan,

Mənim təkcə xəyalım var.

Sevgidir salan məni bu günə,

Sən qənim kəsildin səadətimə,

Gələcək sənindir, heç də üzülmə,

Mənim təkcə bu günüm var.

Əyilməz önündə, qürurum uca,

Sən aciz bilmə heç, üzüm Allaha.

Gəz, dolan, keyf elə gəlməm qapına,

Mənim təkcə vüqarım var.

***03. 01. 2011***

## MƏHƏBBƏT ROMANI

Sən də yum gözünü, gəl, mən də yumum,

Büllur sədəflərlə keçmişi yuyum.

Əlini uzat, ver, mən isə tutum,

Yeni bir məhəbbət romanı yazaq.

Biz xəyal edirik tək gələcəyi,

Bil, əlimizdədir bunun kilidi.

Nə olar, gizlətmə, aç ürəyini,

Yeni bir məhəbbət romanı yazaq.

Açılan səhərlər qoy bizim olsun,

Sən istə həyatım səninlə olsun.

İnadın əriyib su təki olsun,

Yeni bir məhəbbət romanı yazaq.

Həyat ondan küsənlərdən inciyər,

Dur bir dinlə, gör ürəyin nə deyər,

- Səninlə, əl-ələ verək, gəl, – deyər.
Yeni bir məhəbbət romanı yazaq.

***31. 08. 2011***

## SƏN ÖZGƏ BİRİNİ GƏLİN EDƏN GÜN

Zaman dayandı, kainat durdu,

Ruhum bədənimdən uzağa uçdu.

Qələmim danışdı, ağlımsa susdu,

Sən özgə birini gəlin edən gün.

Xəyallar toxundu qayaya, daşa,

Göz yaşım sirdaş oldu yağışa.

Taleyim bəxtimlə çıxdı savaşa

Sən özgə birini gəlin edən gün.

Tək ümidim vardı, puça çıxardın,

Sevən ürəyimdə tufan qopardın.

Bir bilsən, nələr-nələr yaşatdın,

Sən özgə birini gəlin edən gün.

***07.08.2012***

## İSTƏSƏM

İstəsən, dənizi verərəm sənə!

Deməyə nə var ki, verə bilərsən?!

Lap gəlsə canımı verərəm sənə!

Verməyə nə var ki, edə bilərsən?!

Ulduzları səpib ayaq altına,

Səninçün xalılar hörərəm, dedin.

Aldatdın sən məni, özünü, hətta,

İstəsən, ac, susuz qalaram, dedin.

Xoş sözlər deyil bu, ağ yalanlardır.

Niyə həqiqətdən uzaq gəzirsən?

Kənara qoyaq, gəl, bu kəlmələri.

İstəsəm, mənimçün edə bilərsən?

***14. 03. 2008***

## ÖZÜMÜ QAYTAR MƏNƏ

Son görüş günündə sən,
dedin, son istəyin nə.
Sənə heç nə demirəm,
özümü qaytar mənə.
Özümü qaytar ki, mən
bir daha çevrilməyim,
bir daha sən olmayım.
Heç zaman, heç vaxt
mən səni düşünməyim,
bir də səni anmayım.
Bir tilsim et sən mənə,
yaddaşımdan çıxasan.
Özünü məcbur et ki,
yoluma çıxmayasan.
Nə olar, kömək elə,
özümü istəyirəm.
Zərrə qədər olsa da,
bir dözüm istəyirəm.
Gedirsən, get,
məni çıxartma haqsız.

Özümü istəyirəm,

inan ki, səndən yalnız.

Özümü qaytar mənə,

özümü qaytar mənə...

Məndə də bir qürur var,

önündə ağlamaram.

Sənə möhtac olsam da,

yolundan saxlamaram.

Sən elə düşünmə ki, o ötən illərdəki

kövrək, aciz bir qızam.

Özümü itirmişəm,

mən özümsüz yalqızam.

Özümü qaytar mənə,

Sənə heç nə demirəm,

Özümü qaytar mənə!

***18. 07. 2008***



## SƏN O DEYİLMİŞSƏN

Yatağım bumbuzdur, döşəyim tikan,
Sənli həyatıma sığmır bu cahan.
Bil, eşqim düz idi, sən oldun yalan,
Sən o deyilmişsən, mən uydurmuşam.

Özümü aldatdım illərlə hədər,
Gecələri yatdım sənsiz bixəbər,
Deyirdin səninəm, - yalanmış məgər,
Sən o deyilmişsən, mən uydurmuşam.

Şam kimi əritdin, - xəbərin varmı?
Yoxsa  deyirsən ki, bu da yalandı?
Görmüşəm dar gündə sənin “vəfanı”,
Sən o deyilmişsən, mən uydurmuşam.

Hər şeyi heç saydım ,- dedim düzələr,
Aləmi aldatdım sən demə hədər,
Mən çox ağlamışam güləndə səhər,
Sən o deyilmişsən, mən uydurmuşam.

Üzdü ürəyimi hicran küləyi,
Bircə borcum var sənə verməli.
Çox erkən öyrətdin mənə sevməyi,
Amma -
Sən o deyilmişsən, mən uydurmuşam.

***12.06.2006***

## SƏNDƏN YADİGAR

Sən mənim yadımdan bir an çıxmırsan,

Aldığım nəfəs də səndən yadigar.

Bilmirəm, bu nə sirr, bu nə sehrdir,

Göydəki günəş də səndən yadigar.

Sevgilim, unudub getmisən məni!

Qaytara bilmirəm sənli günləri.

Çağlayan bulaqdır gözümün nəmi,

Göz yaşlarım da səndən yadigar.

Sevmədin, aldatdın körpə uşaq tək,

Nə etdim ki, məni qoydun tənha, tək?!

De, necə yaşasın sənsiz bu ürək?!

Ürək döyüntüm də səndən yadigar.

Dalğalı göy dəniz, bu mavi səma,

Şəri, xeyri ilə bu sirrli dünya,

Əsən yarpaq da, quru budaq da,

Sanki bu kainat səndən yadigar.

***19. 09. 2009***

## DE, HANSI SEVGİDƏN DANIŞIRSAN SƏN

Tənha bir gecədə, ay işığında
Ürək ağlayanda harda idin sən?
Qulaq səsdə qaldı, gözüm yollarda,
De, hansı sevgidən danışırsan sən?!

Güvəndiyim səndin, sənə qar yağdı,
Yalanın sevgimi alıb apardı.
Sevgi sarayımız viranə qaldı
De, hansı sevgidən danışırsan sən?!

Ən böyük tək səhvim inanmaq oldu,
Gözümün yaşları gözümdə dondu,
Son sözü demədim, desəm də boşdu,
De, hansı sevgidən danışırsan sən?!

***03.03.2008***

## HEYFİM GƏLİR

Nə sənə, nə mənə, nə də zamana,

Nə sənsiz yaşanan günə, aylara,

Nə yuxusuz keçən qışa, payıza,

Təkcə göz yaşıma heyfim gəlir.

Yanaram, közümü görən tapılmaz,

Sızlaram, sızıltı səsi ucalmaz,

Ağlaram, naləmi heç duyan olmaz,

Axan göz yaşıma heyfim gəlir.

***30. 06. 2008***

## YAŞA İNSAN TƏK

Hər yaşın sevinci, hər yaşın qəmi,
Hər yaşın inan ki, var gözəlliyi.
Üzülmə, yaş üstə yenə yaş gəldi,
Yaşa həyatını, yaşa insan tək.

Uşaqlıq, şıltaqlıq, qayğısız günlər,
Gənclik, sevgi dolu, əfsanə illər.
Qocalıq, ahıllıq, müdrik əməllər,
Yaşa həyatını, yaşa insan tək.

Demə ki, yaş ötüb mən qocalmışam,
Demə ki, tezdir, hələ cavanam.
Hər zaman, hər yerdə de ki, insanam!
Yaşa həyatını, yaşa insan tək.

***01.05.2012***

## MƏNİM NAKAM XƏYALLARIM

Sirrlərimin sirdaşısan,

Qələmimin göz yaşısan,

Əziz bacım, qardaşımsan,

Mənim nakam xəyallarım.

Sən kövrəksən körpə kimi,

Yanımdasan kölgə kimi,

Döyünürsən ürək kimi,

Mənim nakam xəyallarım.

Sirr kimisən, açılmazsan,

Qürurlusan, alçalmazsan,

Mənim üçün əlçatmazsan,

Mənim nakam xəyallarım.

***29. 10. 2007***

## GECƏ BƏHANƏ

Ruhum tələb etdi bu gecə səni,

Axı, hardan tapım itmiş sevgini?!

Mən səni axtardım, sən mənsizliyi.

Mən səni gözlədim sən yoxsan deyə,

Mən sənsiz darıxdım, gecə bəhanə.

Ağladım, göz yaşım leysana döndü,

Bu gecə ruhumu kədər bürüdü.

Sənsizlik qəddimi yerlərə bükdü,

Mən səni gözlədim sən yoxsan deyə,

Mən sənsiz darıxdım, gecə bəhanə.

***20. 09. 2010***

## HƏSRƏTİNDƏYƏM

Sevgimə, gəl, belə xəyanət etmə,

Sevdalı qəlbimi tək qoyub getmə.

Onsuz da bu dünya fani dünyadır,

Mənə etdiyini heç kəsə etmə.

Sevgilim, həsrətdən gözüm dolubdur!

Sevgidən alışan ürək olubdur.

Bir günlük dözməzdim mən sənsizliyə,

İndi aylar ötüb illər olubdur.

Sənsiz həyatımdan şikayətdəyəm,

Gecələr oyağam, mən nalədəyəm,

Səbəbsiz gedişin yandırır məni,

Geri dön tək sənin həsrətindəyəm.

***22. 03. 2004***

**EY DÜNYA**

Əyildim önündə bir kölə kimi,

Ürəkdən gülmədim bu günə kimi.

Vurdurdun boynumu sən cəllad kimi,

Gördüm ki, sən qəddar şahsan, ey dünya!

Büdrəyib yıxıldım hər addımbaşı,

Gözümə səpdirdin sevgi yağışı.

Hünərin çatmadı, silərən yaşı,

Gördüm ki, içi boş daşsan, ey dünya!

Dosta xəyanəti, yada sevgini,

Bizi sevməyəni yenə sevməyi,

Öyrətdin, öyrəndik, çarəmiz nədi?

Gördüm ki, şeytana sirdaşsan, dünya!

***12. 01. 2010***

**MƏNİ ƏZABLARDAN QURTAR NƏ OLAR**

İnadın qəddimi yerə bükübdü,

Yazda səbr et, dedin, yarpaq töküldü.

Sənsiz keçən zaman ölüm hökmüdü,

Məni əzablardan qurtar, nə olar?!

İçimə axıtdım hər kədərimi,

Demədim yadlara nə çəkdiyimi.

Unutmaq istərəm mən keçmişimi,

Məni əzablardan qurtar, nə olar?!

Yalvarıb diz çöküm qarşında sənin?

De, nə sevgimizə kəsildi qənim?!

Titrədi cavabsız uzanan əlim,

Məni əzablardan qurtar, nə olar?!

***18. 01. 2009***

## ƏFV ETDİM HƏR KƏSİ ÖZÜMDƏN BAŞQA

Əfv etdim hər kəsi özümdən başqa,
Əfv edə bilmirəm özüm özümü.
Sevmədim kimsəni mən səndən başqa,
İndi istəmirəm, görəm üzünü.

Barışdım taleylə, barışdım bəxtlə,
Barışdım sevgisiz bəşəriyyətlə.
Küsdüm özümə, küsdü mən mənə,
Əfv etdim hər kəsi özümdən başqa.

Əfv etdim hər sözü, hər andı, səhvi,
Unutdum keçmişi, unutdum səni.
Qurutdum gözümdən axan selləri,
Əfv etdim hər kəsi özümdən başqa.

Bu da bir dərsdir, bir imtahandır,
Sualları çətin, cavab yalandır.
Çəkdiyim öz cəzam, öz nöqsanımdır,
Əfv etdim hər kəsi özümdən başqa.

***03. 08. 2012***

## DAHA MÖCÜZƏDİR

Küsüb çox incitdik bir-birimizi,
Yad ələ öyrətdik biz əlimizi,
Çirkaba buladıq pak izimizi,
Daha möcüzədir barışmağımız.

Hər sözü söz edib bir söz çıxartdıq,
Yalanlar içində sevgi axtardıq,
Söz varkən göz-gözə baxıb dayandıq,
Daha möcüzədir danışmağımız.

Od-alovdan qaçıb közdə isindik,
Alışdıq, nə olsun, yana bilmədik,
Biz bu od-alovu çoxdan itirdik,
Daha möcüzədir alışmağımız.

Ayrı yuvalara gətirdik pənah,
Ayrı qollar üstdə açıldı sabah,
Bu eşqdən danışmaq bizlərə günah,
Daha möcüzədir bir olmağımız.

***24. 07. 2012***

**SADƏCƏ SEVDİM**

Körpə uşağın göz yaşı kimi,

Tər-təmiz pak ana sevgisi kimi,

Bəmbəyaz göyərçin qanadı kimi

Mən səni sadəcə, sadəcə sevdim.

Sahilsiz qayıq tək eşqində üzdüm,

Şikayət etmədim, özümü üzdüm.

Səbri öyrəndim, səbrlə dözdüm,

Mən səni sadəcə, sadəcə sevdim.

Təmənna güdmədim alnıaçığam,

Sanma ki, nə vaxtsa unudacağam.

Sevgim var olduqca, var olacağam,

Mən səni sadəcə, sadəcə sevdim.

***17. 03. 2010***

**ÖZÜNDƏN SORUŞ**

Qınaq hədəfinə çevirdin məni,
Susdum, alçaldaraq mən mənliyimi,
Bütün yaşananlar oyunmu, eşqmi? –
- Məndən deyil, bunu özündən soruş.

Yazığın gəlirmi de gözüm bizə?
Bu gün qibtə edir dünənimizə.
Qayıtmaq olarmı o sevgimizə? –
- Məndən deyil, bunu özündən soruş.

***14.04.2008***

## SƏNƏ NECƏ XİTAB EDİM

Sənə necə xitab edim? –

Sual verdim özümə.

- Deyimmi, ey vəfasız,
  deyimmi bivəfasan?!

Bəlkə deyim ömrümdə

unudulmaz insansan?!

Heç bilmirəm, nə deyim sənin kimi əğyara.

Bax, sən elə əğyarsan,

səmimi olsaq əgər.

Sən elə bir insansan, unudulmursan heç vaxt.

Pisliyin yadda qalır yaxşılığından qabaq.

Sən mənim cüt gözümsən

səhər-axşam ağlayan.

Sən mənim naləmsən

gecələr ərşə çıxan.

Sən mənə yalan deyən,

diri-diri öldürən,

Sən söz verib tutmayan

yalançı bir insansan,

yalançı bir insansan!!!

***02. 04. 2005***

## ÖYRƏNƏRDİM

Bilsəydim xəyalım suya düşəcək,
Əvvəla üzməyi öyrənərdim mən.
Həyat gəldiyi tək bir gün gedəcək,
Bacarsam, durmağı öyrənərdim mən.

Hər şey dəyişib tarix olacaq,
Bu gün keçmiş olub unudulacaq,
Qara saçlarımı ağlar saracaq,
Düşünüb bir əlac öyrənərdim mən.

Əlimdə olsaydı zamanın hökmü,
Açardım taleyin  bu düyününü,
Geriyə verərdim kino tək ömrü,
Kaş, bunu vaxtında öyrənərdim mən.

***19. 04. 2010***

**NİFRƏT**

Nifrət sevgidən daha güclüdür,

Çünki nifrətin saxtası olmur.

Nifrət içdən gəlir, nifrət əyilmir,

Çünki nifrətin qüruru olmur.

Sevgidən şeirlər, nəğmələr dolu

Sevə bilməyənlər eşqdən danışır.

Nifrətə aparır sevginin sonu,

Nifrətdən yazılmır, nifrət danışır.

***02.09.2009***

**YADINDA SAXLA**

Söyüdlər başını qaldıran zaman,

Bu dünya tərsinə firlanan zaman,

Lalənin bağrı ağaran zaman,

Sənə dönəcəyəm,

yadında saxla.

Əgər günəş aydan umsa işığı,

Ulduzlar göydən ensə aşağı,

Ayıran olmasa ağdan qaranı,

Səni sevəcəyəm,

yadında saxla.

***18.09.2007***



## XİLAS ET MƏNİ

Dilim qıfıllanıb, lal olmuşam mən,

Sənsizlik oduna qalanmışam mən.

Ölümlə üzbəüz dayanmışam mən,

Əlacım səndədir, xilas et məni.

Sənə olan eşqim bitməz, tükənməz,

Bu sevgi dünyaya bir daha gəlməz.

Ürəyim bil, ayrı bir söz eşitməz,

Son sözüm səndədir, xilas et məni.

Mən kiməm? Nəçiyəm? - Heç kiməm sənsiz,

Doğmalar içində yetiməm sənsiz.

Yolunu itirmiş yelkənəm sənsiz,

Limanım səndədir, xilas et məni.

Zamansız yaşandı ayrılığımız,

Bəhrəsin vermədi heç baharımız.

Dərdin kimə desin, de, indi bu qız?!

Dərmanım səndədir, xilas et məni.

***08. 11. 2011***

## TƏKİ SƏNDƏN AYRILMAYIM

Sən payız ol, mənsə xəzəl,

Təki səndən ayrılmayım.

Sən bir ay ol, mənsə ulduz,

Təki səndən ayrılmayım.

Mən razıyam, kölgən olum,

Dur dediyin yerdə durum,

Ayaq altda kölgən olum,

Təki səndən ayrılmayım.

Bir çiçəyəm səndən ayrı,

Sənsiz neynim  bu cahanı.

İstərsən, lap al canımı,

Təki səndən ayrılmayım.

***24. 10. 2006***

## SƏNSİZ HEÇƏM MƏN

Gənc ikən qocalmış cavanlar kimi,

Suya həsrət qalan torpaqlar kimi,

Südündən kəsilmiş uşaqlar kimi,

Səninlə xoşbəxtdim, sənsiz heçəm mən.

Dalğasız dənizəm, dənizsiz liman,

Sənsiz həyatım, gəl, gör bir nə yaman,

Gəl, sənin özünə, sözünə qurban!

Səninlə xoşbəxtdim, sənsiz heçəm mən.

Kabuslar içində keçir günlərim,

Səninlə yaşandı xoşbəxt illərim,

Biçarə qalmışam de, mən nə edim?!

Səninlə xoşbəxtdim, sənsiz heçəm mən.

***19. 10. 2011***

## XƏBƏRİN VARMI

Büsbütün yalandan büt uydurmuşam,
Sən bir xəyal idin, gərçək sanmışam.
Səni aldatmadan mən aldanmışam,
İndi isə yalanam,
                    xəbərin varmı?!

Özümü yolunda əsən meh etdim,
Səninçün ölümə belə mən getdim.
Sevgidən ac qalıb, səni yedirdim,
İndi isə doymuşam,
                    xəbərin varmı?!

Hönkürüb ağladım gecədən sübhə,
Bildim ki, səsim çatmayır sənə.
Adından xətt çəkdim, çəkdiyim xəttə,
Bir möhür də vurdum,
                    xəbərin varmı?!

Sonradan niyə mən günahkar oldum?

Sən xəta işlətdin, mən isə susdum.

Özümə söz verib, yenə zəng vurdum.

İndi isə and içdim,

xəbərin varmı?!

Artıq dəyişmişəm, o eşq ölübdür,

Unutma, od-alov çoxdan sönübdür.

Yadındamı, dedim, sevgim böyükdür!

Sən onu kiçiltdin,

xəbərin varmı?!

***14. 12. 2008***

**SƏN OLMADINMI**

Deyə bilməyəndə ürək sözümü,
İçimdə dananda özüm özümü,
Tənhalıq alanda səbr dözümü,
Qəflətdə uyuyan sən olmadınmı?!

Yalanlar içində batıb qalanda,
Hər gecə gizlicə mən ağlayanda,
Sinəmdə böhtandan od qalananda,
Eşqi heçə satan sən olmadınmı?!

Xəyanətin dadıb çox aldanmışam,
Uşaq tək nağıla mən inanmışam.
Səndən səni deyil, məni ummuşam,
Məni məndən alan sən olmadınmı?

***25. 09. 2009***

## OLMAYIB

Sarılıb ağlamaq  istəyəndə mən,

Başımı qoyacaq çiyin olmayıb.

Gecələr yastığı isladanda nəm,

Saça sığal çəkən əlim olmayıb.

Heç kəs duymayıbdır bu fəryadımı,

Silə bilməmişəm qəlbdən adını.

Nə edim, tapmıram açıq qapını,

Yoluma nur saçan şamım olmayıb.

Dan yeri sökülüb kirpiklərimlə,

Bu şeiri yazmışam göz yaşım ilə.

Unuda bilmədim mən səni yenə,

Axı, unutmağa dayaq olmayıb.

***05. 09. 2010***

## NAKAM SEVGİM

Sevgindən bil mənə heç nə qalmayıb,

Tək kədər həmdəmim, dostum olubdur.

Gözümdə sevincdən əsər qalmayıb,

O gündən gözlərim yaşla dolubdur.

Mən səni sevirdim, sevirəm hələ,

Özümü xəlvətcə sənə vermişəm.

Sevən hər cəfaya dözərmiş deyə,

Özümü alçaldıb mən, sən etmişəm.

Mən sənə vuruldum, inan bilmədən,

Bu eşqin axırı bir uçurummuş.

Qəlbim pıçıldardı hər gecə dəmdən,

Həsrəti bir alov, sevgisi quşmuş.

İntizar şah olub hökmün eləyir,

Bu bəxtsiz, talesiz kor qismətimə.

Fələklər yas tutub ahdan inləyir,

Bu yetim, kimsəsiz nakam sevgimə.

***18. 11. 2004***

## MƏNƏ SEVMƏYİ ÖYRƏDİN

Aləm coşub, daşır, dinir bu dünya,

Toy-büsat içində dinir bu dünya.

Doğrudanmı görən, sevir bu dünya?!

Mənə sevməyi öyrədin!

Qoşa-qoşa gəzir ətrafda gənclər,

Sevincə qarışır saxta sevinclər.

Sevgini görüşdə görür sevənlər,

Mənə sevməyi öyrədin!

Əlçatmaz sevgilər alçalıb nədən?

Leyliyə, Məcnuna yoxdur bənzəyən.

Görmürəm ürəkdən sevib sevilən,

Mənə sevməyi öyrədin!

***02. 03. 2010***

## NƏ DƏYİŞƏCƏK

Nə dəyişəcək, sənə sevirəm desəm?

Onsuz da sən yad qollarındasan.

Nə dəyişəcək, sənə hissimi desəm?

Onsuz da sən yuva qurmusan.

Mənsiz də səni isidən varmış,

Mənsiz də ömür yaşanarmış,

Gördüm ki, həyatda hər şey  yalanmış

Nə dəyişəcək, sənə sevirəm, desəm?

Unutmaq gərəkdir olub keçəni,

Ağlamaq qaytarmaz heç vaxt keçəni.

Sevərəm hər kəsdən gizlicə səni,

Nə dəyişəcək, sənə sevirəm, desəm?

Sən başqa əllərin əmanətisən,

Sən başqa bir evin dəyanətisən.

Axı,sən özgənin səadətisən,

Nə dəyişəcək, sənə sevirəm, desəm?

***21. 01. 2008***

## SƏN MƏNƏ NƏ VERDİN

Sən mənə nə verdin?

- Bir ovuc sevgi!

Bir ümman sevgimin əvəzidir o?

Sən mənə nə verdin?

- Sonsuz qəm, kədər!

Titrək məhəbbətin naləsidir o.

Sən mənə nə verdin dərddən savayı?!

Yalana ömrümü bürüyüb getdin.

Sən mənə nə verdin?

- Bir eşq harayı!

Ömrümü nəğməyə çevirib getdin.

Sən mənə nə verdin?

- Gecədən sübhə saat çıqqıltısı dinləməyimi?!

Sən mənə nə verdin?

- Səssiz ağlayıb, könlümü pərişan eyləməyimi?!

Sən mənə nə verdin, nə istəyirsən?!

Sən məni özümdən məhrum etmisən!!!

***06. 04. 2007***

## GECƏ GÜNƏŞİM

Qəflətən budaqdan qopan yarpaq tək

Düşdün ürəyimin şah damarına.

Göylərdə şığıyan ildırımlar tək

Sıçradın ömrümün payız çağına.

Təsadüfmü deyim mən bu görüşə?!

Yoxsa sən tanrının hədiyyəsisən?!

Özüm heyran oldum öz sevincimə,

Bəlkə, mənim üçün doğulmusan sən.

İçimdə çovğunlu, soyuq qış ikən,

Sən gəldin ömrümə, gecə günəşim.

İsti yay gecəsi üşüyər ikən,

İsitdin könlümü, gecə günəşim.

Gəlişin ömrümü nura boyadı

Mən səni kəşf etdim tək özüm üçün.

Sevirəm, sevirəm, sevirəm səni!

İnan, yaşayıram tək sənin üçün.

Saç! Parla! Hər zaman,

şəfəqlərinlə,

Qamaşsın gözlərim, isinsin qəlbim.

Mənim üçün başqa bir dünyasan sən.

Parla hər bir zaman, gecə günəşim!

***17.07.2009***

## LAYİQ DEYİLSƏN

Nə vaxtsa bu dəftər əlinə keçsə,
Gözün bilmədən bu şeiri seçsə,
Sənin ürəyin başqasını sevsə,
Oxuma, şeirimə layiq deyilsən.

Hər şeirin sətrində göz yaşım gizli,
Qəlbimdə yer tutub eşqin nisgili.
Demə, bu sevgi cavanlıq səhvi,
Toxunma, sevgimə layiq deyilsən.

Sən mənim yeganə ilhamım oldun,
Şeirin əvvəli sonu sən oldun,
Ürəyin dinmədi, ya qəsdən susdun?
Danışma, sözlərə layiq deyilsən.

Sənin əzabın da mənə doğmadır,
Sevgim sevgilərə heç də oxşamır.
Sənsizlik bir dərd tək günbəgün artır,
Unutma, bunlara layiq deyilsən.

***26. 11. 2007***

## BİZİ ÖLÜM AYIRAR

Hər şeyin bir əvvəli, hər şeyin var axırı.

Zaman bizə dar gəldi, ya, səbrimiz usandı?

Bəlkə əcəl qonaqdır, əlində də əsası?

Bizi ölüm ayırar, qoy, bunu bilsin hamı.

Sənin soyuq sözlərin,mənim şıltaq göz yaşım,

Aciz deyilik ki, biz, əyilməyəcək başım.

Sən mənim yanımda ol,hicran, həsrət gen durar,

Qoy bunu bilsin hamı,bizi ölüm ayırar.

Getmək çarə deyil, bil, ürək üsyan qoparar,

Sən şahımsan könlümdə, sevgim sənə qul olar,

Sən mənim yanımda ol, ürək sənlə bir vurar,

Qoy, bunu bilsin hamı bizi ölüm ayırar.

Əvvəli xoş nağılın, sonu da xoş olmalı!

Bu sevgi bir doğuldu, hər yerdə bir olmalı!

***21. 06. 2010***

## GERİ QAYITMA

Yad, özgə, olmusan artıq sən mənə,
Gözüm öyrəşibdir qəhərə, nəmə.
Unutmuşam səni, inan, səninlə
Bir daha olmaram, geri qayıtma.

Çıx, get sən ömrümdən ötəri hiss tək,
Bir vaxt aciz idim qanadsız quş tək,
Bilsəm ki, qalmısan dörd divar, sən tək –
Daha aldanmaram, geri qayıtma.

Ürəyim öyrəşib tənhalığıma,
Yazığın gəlməsin mənim halıma,
İxtiyarın yoxdur  sevgi ummağa.
Daha kövrəlmərəm, geri qayıtma.

***27.09.2007***

## GET

Bəlkə də xoşbəxtəm, bəlkə də bədbəxt,

Bəlkə də taledə yazılmayıb  bəxt.

Deyirsən, əzəldən olmadıq xoşbəxt,

Xoş günlərimizi dana-dana get.

İstəməm, dil tökmə boş təsəlliyə,

Gərək yox, yer vermə əbəs sözlərə,

Gizlətmə gözünü getmədən öncə,

Gözümün içinə baxa-baxa get.

Nə edək, sən çıxdın əhdinə dönük,

Zaman karvan oldu, sevgimiz də yük,

Görünür bu eşqin yükü çox böyük,

Çiynindən bu yükü ata-ata get.

***02. 12. 2009***

## GƏLƏCƏKSƏN BU GÜN GƏL

Diz çökdüm illərin qarşısında mən,

Məhv oldum hər gecə gözlərimdə nəm.

Bilirsən, sənsizəm, ey vəfasız, sən

Gələcəksən, bu gün gəl, sabah gec ola bilər.

Ürəyim göyərçin, bədənim qəfəs,

Sən idin həyatım, sən idin nəfəs.

De, niyə əzablar verirsən əbəs?!

Gələcəksən bu gün gəl, sabah gec ola bilər.

***6. 10. 2009***

**GÜN GƏLƏR**

Sənə bir xəyanət borcum var mənim,
Gün gələr, çıxaram xəcalətindən.
Çox yaralar vurdun sevən qəlbimə,
Utan, heç olmasa o qeyrətindən.

Səbəbsiz ah nalə yerlərdə qalmaz,
Gün gələr, sənin də ürəyin sızlar,
Sevən sən deyildin, indi anladım,
Sevsən, sənin də ürəyin ağlar.

Sənə aid olan o qısasımı,
Gün gələr, verərəm artığıyla mən,
Nigaran qalma heç, edərəm bir gün,
Həyata ilk başdan yeni bir qədəm.

***15. 06. 2006***

**DEMƏ Kİ, VƏFASIZ MƏNƏM**

Yalandım, doğruyam, - artıq səninəm,
Səhvimi dərk edib sənsizləmişəm,
Qəbul elə, hüzuruna gəlmişəm.
Nə olar, demə ki, vəfasız mənəm.

Gəl, kini, nifrəti qoyaq kənara,
Gəl, gedək səninlə lap uzaqlara,
Unudaq keçmişi, baxaq sabaha
Nə olar, demə ki, vəfasız mənəm.

***27.10.2008***

## DE, NECƏ UNUDUM

De, necə unudum, axı mən səni?!

Unutsam, özümü unutmalıyam.

Axarkən gözümdən həsrətin seli,

Unutsam, selləri qurutmalıyam.

De, necə unudum, axı mən səni

Bu körpə sevgimiz qan ağlayarkən?!

Yıxılıb büdrəyir, yolun tapmayır.

Mən necə unudum, sən unudarkən?

De, necə unudum axı mən səni?!

Hər addımbaşında bir xatirən var.

Mən necə unudum o gözlərini?

Gözümün önündən getmirsən, əğyar!

***04. 08. 2012***

## BƏLKƏ DƏ BU GÖRÜŞ  MƏHƏBBƏT OLDU

Həyatın işini nə bilmək olar,

Bəlkə bu təsadüf məhəbbət oldu?

Bu gündən sabahı deməkmi olar,

Bəlkə də bu görüş məhəbbət oldu?

Bilinməz ki,Tanrı nə edəcəkdir,

De, onun hökmündən çıxanmı oldu?!

İstəsə, bir daşdan dağ edəcəkdir.

Bəlkə də bu görüş məhəbbət oldu?

Arxayın olmayaq, gəl, özümüzdən,

Özümüz qorxuruq, bil, özümüzdən,

Gəl, ataq daşları ətəyimizdən,

Bəlkə də bu görüş məhəbbət oldu?

***20. 08. 2010***

## AYRILMALIYIQ

Heç zaman mininə yüz deməmişəm,
Sən bildiyindən çox səni sevmişəm.
Görüşə yox, mən vidaya gəlmişəm,
Görüşə-görüşə ayrılmalıyıq.

Bilirəm, sevirsən dünyalar qədər,
Amma ki, danırsan sevgini hədər.
Göydəki ulduz tək qəlbimdə kədər,
Dərd çəkə-çəkə ayrılmalıyıq.

Son dəfə baxacaq gözlərim sənə,
Mən də deyəcəyəm son sözü sənə,
Nə olar, sən də de, sevirəm mənə,
Biz də sevə-sevə ayrılmalıyıq.

***04. 01. 2002***

## MƏN AĞLARKƏN SƏN GÜLDÜN

Mən ağlarkən sən güldün,

Sən ağlayanda isə...

Könlümü qubar edib,

ahu-zar içində mən

sənin əlindən tutdum.

Mən ağlarkən sən güldün.

Heç özün də bilmədən

mənim hər gün, hər saat

qəlb evimi sökürdün.

Mən buna tab gətirdim

gözümdən axan yaşla,

Mənə təsəlli verən

ay kimi sirdaşla.

Mən ağlarkən sən güldün.

Buna bir qismət deyib

qismətimlə barışdım.

Taleyə boyun əyib,

həsrətinlə barışdım.

İndi bu həyat da mənə mənasız gəlir.

Günəş şəfəqi belə vücudumu isitmir.

Mən ağlarkən sən güldün.

Əlim əlində ikən yad əllərə toxundun.

Bu da mənim bəsimdir.

Artıq sənə sözüm yox,

bu əlvida şeirimdir!!!

***13. 07. 2004***

## HÜNƏRİN VAR

Yaxşını sevməyə nə var dünyada?

Hünərin var, pislərini sevəsən?

Nəfsinə dur, demək çətin olsa da,

Hünərin var, hisslərini əzəsən?

Yağış deyil yağan, göz yaşlarımdır,

Buludlar əlçatmaz arzularımdır,

Sənlə yaşanan xəyallarımdır,

Hünərin var, reallığa keçəsən?

Bu fani dünyada harayım oldun,

Səmadakı ulduzum, sən ayım oldun,

Zil qara gecələr qonağım oldun,

Hünərin var, səhərləri gələsən?

Hər düşən yarpaqla bir ömür gedir,

Fəsillər ötüşüb zamana yetir,

İnsan səhvləriylə kamala yetir,

Hünərin var, gəl, səhvlərsiz yaşa sən!

***04.11.2008***

## HÖNKÜRÜB AĞLASAM DÖNƏRSƏNMİ SƏN

Çarəsiz bir qulam, ərimiş şamam,

Sənin nəfəsinə həsrət qalmışam.

Nə edim, kor olub, aşiq olmuşam,

Hönkürüb ağlasam, dönərsənmi sən?!

Gecədən sübhə dək qırpılmır gözüm,

Sənədir şeirim, sənədir sözüm.

Qalmayıb nə səbr, nə də ki, dözüm,

Hönkürüb ağlasam dönərsənmi sən?!

Nə günə qalmışam aman Allahım!

Əlacım göz yaşım, əlacım ahım.

Nə edim, çatmayır sənə harayım,

Hönkürüb ağlasam, dönərsənmi sən?!

Sinəmdə min ahım, naləm dolaşır,

Ətrafda doğmalar mənə yadlaşır.

İçimdə qururla sevgim dalaşır,

Hönkürüb ağlasam, dönərsənmi sən?!

Deyirdin “Ağlama! Dözə bilmərəm,

Sənin göz yaşını görsəm ölərəm”.

Ağlasan, gözündə yaşa dönərəm.

Hönkürüb ağlasam, dönərsənmi sən?!

***20.05.2009***

## OLARSA

Sənin üçün ölərəm, deməyə nə var,
Mənim üçün yaşamaq əgər olarsa.
Ömrü məhv etməyə, de, axı nə var,
Xoşbəxt bir ömür qurmaq olarsa.

Xəyanət edib yalan danışmaq,
Sevənə zülm edib qıyqacı baxmaq,
Asandı aşiqi hər gün alçaltmaq,
Məşuqu göylərlə etmək olarsa.

Unudub keçmişi baxaq sabaha,
Satmayaq sevgini nəfsə, tamaha.
Əl-ələ verib gedək biz daha,
İsti bir ocaq tapmaq olarsa.

***30. 06. 2012***



## ƏLVİDA GƏNCLİYİM...

Əlvida, gəncliyim,

sən də gedirsən!

Tək qoyursan məni bivəfa dost tək.

Əlvida, gəncliyim,

get, gedəcəksən!

Yaşayaq zamanla, nə olar görək.

Əlvida, gəncliyim,

sənsən vəfasız!

Mən sənə sədaqət andı içmişdim.

Gedirsən ömrümdən vaxtsız, zamansız.

Mən səni əbədi şahım seçmişdim.

***30. 09. 2009***

**GÖZLƏRİN**

Çoxları gözümün vurğunu olub,

Gözüm gözlərini görəndən sonra.

Gözünün işığı gözümə hopub,

Sənin gözlərinə baxandan sonra.

Gözlərin - ilk evim, son mənzilimdi,

Gözlərin - səmaya qalxan səsimdir,

Gözlərin - “kəlmeyi-şəhadətimdi”,

Qınama sən bunu biləndən sonra.

***12. 04. 2008***



## MƏN DƏ XOŞBƏXT OLACAĞAM

Mən də xoşbəxt olacağam nə vaxtsa,
Bu gözdən sevincdən yaşlar axacaq.
Bilməyirəm, bu gün, sabah, nə vaxtsa,
Ömrümü bəmbəyaz eşq boyayacaq.

Zamanın üstünə zaman gələcək,
Günlərim ötüşüb aylar gələcək.
Ağ atlı şahzadə bir gün gələcək,
Mən də xoşbəxt olacağam nə vaxtsa.

Gerçəyə dönəcək arzu, muradım,
Pərvazlanıb göyə qalxar qanadım.
Gözü kor olacaq düşmanın, yadın,
Mən də xoşbəxt olacağam nə vaxtsa.

Ağlayan günümə baxıb güləcəm,
Ömrümə rəng verib rəng gətirəcəm,
Sevirəm sözünü yenə deyəcəm,
Mən də xoşbəxt olacağam nə vaxtsa.

***11. 04. 2010***

## BİZ GƏRƏK ƏVVƏLDƏN GÖRÜŞMƏYƏYDİK

Çəkilmişəm artıq mən öz dünyama,

Nə olar, bir daha məni arama!

Yalandan dil töküb yenə yalvarma,

Biz gərək əvvəldən görüşməyəydik.

Bir bilsən, nə qədər tökdüm göz yaşı,

Sənsiz qubar oldu bağrımın başı.

Artıq kəsməliyəm mən bu savaşı,

Biz gərək əvvəldən görüşməyəydik.

Sən dedin, unutdum, mən unutmadım,

Sevgimi heç zaman ucuz tutmadım,

Əllərim titrədi, zəngi vurmadım,

Biz gərək əvvəldən görüşməyəydik.

Ayrıldıq, olanlar bitdi o gündən,

Əllərimi üzdüm gecə-gündüzdən,

Elə bu kədərin, qəmin üzündən

Biz gərək əvvəldən görüşməyəydik.

***06. 07. 2005***

## GƏL GEDƏK GÖYLƏRƏ

Gəl, gedək göylərə orda yaşayaq,

Sevgimizə dünya yaman dar gəlir.

Göylərdə sərhəd yox, göydə ayıb yox,

Gəl, uçaq göylərdə, bir qanad çalaq.

Gəl, gedək göylərə,

İnan tərtəmiz, ləkəsiz həyat ancaq orda var.

Nə yalan, xəyanət, nə də iztirab,

Göylərdə eşq dolu ildırımlar var.

Gəl, gedək göylərə,

Sən əlini ver,

Qoy səni sevgim göyə ucaltsın.

Sən dinmə, danışma, bircə ümid ver,

Qoy o gözlər danışsın.

***28.04.2010***

## MƏN BİR QADIN TANIDIM

Mən bir qadın tanıdım,

Özündən məğrur, razı.

Mən bir qadın tanıdım,

Beli bükük, narazı.

Mən bir qadın tanıdım,

Sevgi onun üçün yalan.

Mən bir qadın tanıdım,

Həyatı olub talan.

Mən bir qadin tanıdım,

İnamı yox heç nəyə.

Həyatı boşa keçib meyə, eyş-işrətə.

Mən bir qadın tanıdım,

Əskilməyir duası.

Övladı yox, içində yatır ana sədası.

Mən çox qadın tanıdım.

Hərəsinin öz dərdi, hərəsinin öz sevinci.

Mən qadınlar tanıdım,

Hərəsi öz içində özü üçün xoşbəxtdi.

***16. 12. 2010***

## GETSƏN ÖLƏRƏM  DEMƏRƏM SƏNƏ

Getsən, ölərəm, demərəm sənə.
Qayıtsan özünü ölmüş görərsən.
Mənim sevgimin qarşısında sən,
Getsən, yollarda ölüb gedərsən.

Sevirəm danmıram bu həqiqəti,
Bu sevgi saxlamaz yolundan səni.
Allahım bağışlar əlbət ki məni,
Getsən, ölərəm, demərəm sənə.

Ağlaram gecələr, ağlaram səssiz,
Yaşaram birtəhər ömrümü sənsiz.
Xoşbəxt olmadıq sevənlər tək biz,
Getsən, ölərəm, demərəm sənə.

Əbədi çəkməz ki, bu ağrı-acı,
Yerinə qoyular düşmüş bəxt tacı,
Unutma, bu qəlbim bir eşq möhtacı,
Getsən, ölərəm, demərəm sənə.

***29.12.2011***

**GÖRÜŞDÜK**

**AYRILDIQ**

Bu da son görüş, son vida günü,

Görüşdük,

Ayrıldıq.

Görüşdük, görək,

Görək ki, sevgimiz qalibmi görən?

Görüşdük,

Dilimiz sanki lal oldu.

Durduq saatlarla göz-gözə baxıb,

Saatlar bir anda buz təki dondu.

Ayrıldıq...

Ağlamaq istədim,

bilirəm sən də,

Bəs niyə duruxduq?!

Bəs niyə susduq?!

Ağlamaq istədim...

İstədim ki, mən sənə olan eşqi axıdım çölə,

Sənə olan eşqim köksümdən çıxsın.

Bir anda əlvida deyim mən sənə.

Bacarmadım.

Baxışlarına təslim oldum

Görüşdük,

Ayrıldıq.

***07.03.2008***

## OYUNCAQ DEYİL, BİL, SƏNƏ OLAN EŞQ

İnanmaq çətindir anlayıram mən,
Görürəm bu eşqi görməyirsən sən.
Sən alın yazımsan, danmayıram mən,
Oyuncaq deyil, bil, sənə olan eşq.

Yenə də dünyaya gəlsəydim, inan,
Mən səni axtarıb tapardım, inan!
Varlığın qəlbimdə yaratdı inam,
Oyuncaq deyil, bil, sənə olan eşq.

Zühur etdin ömrümə müqəddəs kimi,
Bil, sənə möhtacam bir uşaq kimi,
Gəl, ovut könlümü, gəl anam kimi,
Oyuncaq deyil, bil, sənə olan eşq.

Tanrıya əl açıb bir bəxt istədim,
O, səni yetirdi, mənim istəyim!
Xoşbəxtəm, sonunda bunu da deyim,
Oyuncaq deyil, bil, sənə olan eşq.

***19. 01. 2011***

**ÖYRƏTDİN MƏNƏ**

Dözümsüz olmuşam bir zaman inan,
Səbri, dözümlüyü öyrətdin mənə.
Mən sənsiz qalmışam, vallah, hər zaman!
Təkcə yaşamağı öyrətdin mənə.

Gözümdəki nəmi gizli silməyi,
Yalnız ağlamağı, yalnız gülməyi ,
Sorğusuz, sualsız səni sevməyi,
İçdə qəm çəkməyi öyrətdin mənə.

İllərdi çəkmirəm gözümü yoldan,
Ürəyim bezibdi bil, çırpınmaqdan.
Bilmirəm bu cəza hansı günahdan,
Sevgini günah tək öyrətdin mənə.

Afərin, yaxşı müəllimim oldun!
Əlifbasız mənə cümlə oxutdun.
Bulaq tək çağlayan eşqi qurutdun,
Əzazil olmağı öyrətdin mənə.

Ömür sarayının açarın alıb,
Şah ikən köləlik öyrətdin mənə.

***06. 03. 2006***

## GİZLİ EŞQ

Hər dəfə səninlə görüşəndə mən,
Ürəyim döyünür, dilimsə çaşır.
Bilmirəm, bu nə sirr, bu nə sehrdir,
Əllərim titrəyir, söz qəlbdə yatır.

Dedim ki, bu dəfə görüşəndə mən
Sənə gizli eşqi bildirəcəyəm.
Bir az ciddiləşib, bir az zarafat,
Vurğun olduğumu söyləyəcəyəm.

Yenə səhər olub, yenə də məktəb,
Dayandın qarşımda yoldaş, dost kimi.
Yox, deyə bilmərəm, axı, mən kiməm?!
Qorxuram itirəm səni yad kimi.

Bəlkə bu məhəbbət bələ də qalsın,
Damarım içində axan qan kimi?!
Heç kəs əl dəyməsin, heç kəs almasın,
Aləmə yayılmış bir şüar kimi.

***30. 10. 2002***

## DUSTAQ OLMUŞAM

Ruhum bədənində, gözüm gözündə,
Əlim əllərində, sözüm sözündə,
Özüm də bilmədən, özüm özündə,
Canımsa, canında dustaq olubdur.

Bu qamət, bu gözlər sanki bir zindan,
Səninəm, nə qədər keçsə də zaman.
Məhbusluğun yükü ağırmış yaman,
Mən azad həyatda dustaq olmuşam.

Əlimdə deyil ki, hökm səndədir,
İstəsən edam et, öz əlindədir.
Günahım sevgidir, səni sevməkdir,
Sənin varlığına dustaq olmuşam.

***10.10.2011***

## EYBİ YOX

Hər səhər, hər gecə sənsən fikrimdə,

Səni gözləyərəm, təki sən gözlə.

Bilirsən sevirəm, gedirsən yenə,

Eybi yox, get, sonra gələrsən.

Bu sevgi bir karvan, mən də ərəbəm,

Sənli sənsizliyə öyrəşməmişəm.

Deyirsən, yalandan sevə bilmərəm?

Eybi yox, yalan ol, sonra sevərsən.

***13.12.2008***

## ÇÖKƏRƏM DİZ

Gecə röyamda da duymazdım bunu,
İndi də deyirsən gəl ayrılaq biz.
Əzizim, bilirəm mən təkcə onu,
Sevgimin önündə mən çökərəm diz!

Eşqdə qürur olmaz, bunu sal yada.
Vəfasız, deyirdin bir vaxtlar sənsiz
Yaşaya bilmərəm fani dünyada!
İndi də deyirsən, gəl, ayrılaq biz.

Sevgimi aləmə bəyan edərəm,
Sən bu ürəyimi heç bilmə dilsiz.
Sanma ki, mən səndən bezib gedərəm,
Sevgimin önündə mən çökərəm diz.

***09. 03.2003***



## BİLSƏYDİN

Səni sevdiyimi, axı bilmirsən,

Bilsəydin, yanıma gələrdin, yəqin.

Sənsiz ağlayıram hər gecə, hər dəm,

Bilsəydin, yaşları silərdin, yəqin.

Bir çovğun, borandır içimdə ahım,

Küləkdən, yağışdan xəbərin aldım.

Səni soraqlayıb çox yerə baxdım,

Bilsəydin, bir xəbər verərdin, yəqin.

Həsrətin bağrımı qubar elədi,

Tənhalıq dözmədi üsyan elədi,

Göz yaşım sirrimi əyan elədi,

Bilsəydin, üzümə gülərdin, yəqin.

Zaman kədərindən mənə don biçir,

Sevgim gözlərini gözünə dikir,

Cavabsız sualla illərim keçir,

Bilsəydin, cavabın verərdin, yəqin.

***16.12.2008***

## GEDİRƏM, İSTƏSƏM,

## İSTƏMƏSƏM DƏ

Sevib atıldım bu gənc yaşımda,
İnamım qalmadı dosta, tanışa.
Ya Rəbbim, nə olar məni bağışla,
Gedirəm, istəsəm, istəməsəm də!

Yaşadım, xəyanət qismətim dedim,
Ağladım sübhədək içdə qəm yedim.
Dərdimi hər kəsdən gizlicə çəkdim,
Gedirəm, istəsəm, istəməsəm də.

Unutdum gələcək arzularımı,
Dandım gələcəyi, sabahlarımı.
Bağladım boş qalan eşq otağımı,
Gedirəm, istəsəm, istəməsəm də.

Baxmayın yaşım az, saçım qaradır,
İçimdə cavabsız bir eşq ağlayır.
Ürəyim dözməyir, üsyan qoparır,
Gedirəm, istəsəm, istəməsəm də.

***09. 10. 2008***

**NECƏ BACARIM**

İllərdi xəyanət gördüm dünyadan,

İnanım deyirsən? - Necə bacarım?

Cavanam, amma ki, küsdüm dünyadan,

Barışım, deyirsən? - Necə bacarım?

Yalanlar yerlərə bükdü qəddimi,

Gülüşlər artırdı gözdə nəmimi.

Unuda bilmirəm olub keçəni,

Unudum deyirsən? – Necə bacarım?

Gizlicə ağladım, duyan olmadı.

İçimdən kədəri yuyan olmadı.

Heç kimsə sirrimə əyan olmadı,

Sevimmi deyirsən? – Necə bacarım?

***17. 05. 2009***



## GERİ DÖN

Göz yaşın kirpiklə doğmalaşıbsa,
İntizar könlünə yaxınlaşıbsa,
Qəlbində başqası, yer almayıbsa,
İçində qüruru boğub, geri dön.

Əgər getdiyinə sən peşmansansa,
Mənsiz bu cahanda tək tənhasansa,
Həsrətdən, kədərdən sən doymusansa,
Bir dəstə gül ilə mənə, geri dön.

Mən səni sevirəm, bunu bilirsən,
İlk arzum, ilk duyğum, ilk eşqim sənsən.
Sən mənim həyatda son mənzilimsən,
Sevən bağışlarmış, getmə, geri dön.

***10. 08. 2005***

## ƏLVİDA

Sən bunu istədin, mən çıxıb gedim,

Gedirəm, əlvida demədən sənə.

Olmadı, qürurum qoymadı deyim,

Səni sevəcəyəm, sevməsən belə.

Məndən uzaqdasan əllərim çatmır,

De, necə keçirdin bu ayı mənsız.

Hələ oyaq sevgim könlümdə yatmır.

Röyada əlvida deyəcəm səssiz.

Əlvida, əlvida, ey məhəbbətim,

Təqsiri mən səndə görürəm yenə.

Sən idin, ilk eşqim, bil, son ümidim,

Bax, məni məhv etdin, göz görə-görə.

***08. 02. 2004***

## NƏ DEYİM

Nə deyim, tanışlar səni soruşsa?
Özün de, çaşmışam, söz də tapmıram.
Nə edim?
Sən de!
Sən nə edərdin?
Yaman yorulmuşam,
ayrılaq daha.
Bəsdir! Bəsdir bu qədər yalanlar deyib,
Günbəgün özünü atdın günaha.
Nə deyim gözlərim səni axtarsa,
Əksin çəkilməsə illərdən sonra?!
Nə deyim?
Cavab ver,
cavabsız qoyma!
Nə deyim?
Dilim gecədən sübhə,
adını hər dəqiqə sayıqlayarsa
Əgər möhtac qalıb şirin sözünə,
yoxluğun qəlbimi acılayarsa,
Nə deyim?

Nə deyim, dodağım dodaqlarına,

əllərim əlinə həsrət qalarsa?

Nə deyim, büsbütün vücuduma mən

keçən hər zamanda səni ararsa?

Ən asan yolu seçirsən yenə, -

\- səbəbsiz, susaraq, sakit, yavaşca...

Gedirsən cavabsız.

Bilmirəm hara.

***08.02.2008***

## DƏYİŞMƏ DAHA

Payız gəlib, quşlar elə köçsə də,

Xəzəl olub, yarpaq yerə düşsə də,

Şəhərimi xəzri yeli öpsə də,

Sən ki, dəyişmədin, dəyişmə daha.

Ağlayıb sızlaram yad əllərində,

Nəğməyə çevrildim yad dillərində,

Məni də alçaltdın elin gözündə,

Sən ki, dəyişmədin, dəyişmə daha.

***25. 12. 2006***

## SƏNİ ALLAHIM  BAĞIŞLAMAYACAQ

Nə tez unutdun əhdi-peymanı,

Verdiyin o andlar, de, görüm hanı?

İntizar bölübdür qəlbimi yarı,

Səni Allahım bağışlamayacaq!

Əzəldən vardır qəlbimdə yerin,

Od vurdun, kül oldu ürəkdə eşqim,

Sahildə yazı tək yox oldu izin,

Səni Allahım bağışlamayacaq!

Könlümdə atəşli sözlər buraxdın,

Məni, bir heç kimi qəlbindən atdın,

Halalı harama, yamana qatdın,

Səni Allahım bağışlamayacaq!

Göz dəydi, deyirsən, axı, yalandır,

Sevgi gözdəymədən böyük, ucadır,

Mənə etdiklərin bağışlanmazdır,

Səni Allahım bağışlamayacaq!

***04. 11. 2003***

**HEÇ KİM**

Ən böyük günahım, ən böyük səhvim,
Ən böyük cəzamsan tanrımdan mənim.
Sənə haram olsun bu məhəbbətim,
Heç kim məni belə alçaltmamışdı.

Tər-təmiz dünyamı çirkləndirdin sən,
Elə bil, ağlayan deyildin dünən.
Səni sevdiyim gün daş olaydım mən,
Heç kim məni belə yandırmamışdı.

Sənin sevgin yalan imiş əzəldən,
Sən bunu bilirdin elə ilk gündən.
Günahın gələcək bir gün gözündən,
Heç kim məni belə aldatmamışdı.

Deyilən sözlər doğru imiş məgər,
Yaxşı deyiblər, gedənlər gedər.
Görəsən, göz yaşım sevgimə dəyər?
Heç kim məni belə ağlatmamışdı.

***07 .09 .2005***

## UNUDA BİLMƏDİM

De, niyə tərk etdin səbəbsiz məni,
Ovcumda saxlamışam əlinin istisini.
Günahkar sən oldun, bilsəm də, səni
Unuda bilmədim, unutmayacağam.

Xəyanət etmədim bircə an sənə,
Ağlamaq tək çarə, əlacdır mənə.
Sən tək vəfasızı bilmirəm niyə
Unuda bilmədim, unutmayacağam.

Sevgini heç saydım, dedim yalandı,
Səni görən andan sevgi yarandı.
Səninlə yaşanan günü, ayları
Unuda bilmədim, unutmayacağam.

***02.02.2009***

**SOYUMA MƏNDƏN**

İstə, gözün üstə qaşın olaram,

Yoluna nur saçan işıq olaram.

Ağlasan, gözündə yaşın olaram,

Könlümün sultanı, soyuma məndən!

Nəğmələr qoşaram mən varlığına,

Ölərəm, baxmaram cavanlığıma.

Canımdan keçərəm, sən can axtarma,

Canımın cananı, soyuma məndən!

İlkin nübarımsan, son mənzilimsən,

Əvvəlim, bu günüm, sən əzəlimsən.

Mənim üçün sən deyil, sən mənliyimsən,

Dilimin əzbəri, soyuma məndən!

***11. 02. 2010***

## YANDIRACAĞAM

Əzabları mənə çəkdirdin, əhsən,
İnana bilmədim, sən o sənmisən?!
Unutma, sən mənsiz dünyada heçsən.
Səndən qisasımı mən alacağam,
Səni için-için yandıracağam.

Gün gələr, sən mənə möhtac olarsan,
Gözümün içinə baxıb ağlarsan,
Tələsmə, gün olar, tənha qalarsan.
Mən o mən deyiləm, başqa bir qızam,
Səni için-için yandıracağam.

Sən məni tərk etdin səbəb olmadan,
O təmiz eşqimi yada salmadan,
Çox şükür, tanıdım səni yaxından!
İnan ki, mən səni unudacağam,
Səni için-için yandiracağam.

Anladım, sən mənə layiq deyilsən,
Mənsiz dənizlərdə batmış gəmisən,
Tezliklə mən qədər dərd çəkəcəksən,
Səni xoş günlərə həsrət qoyacam,
Səni için-için yandıracağam.

***25. 05. 2006***

## SƏN BUNLARI BİLMƏYİRSƏN

Zaman keçir, aylar ötür,

Ürək yanır, arzu sönür,

Aylar keçir, ilə dönür,

Sən bunları bilməyirsən.

Gecə oyaq ayla görüş,

Gündüz qəmli, soyuq öpüş.

İstəyirəm sənə dönüş,

Sən bunları bilməyirsən.

Ürək dustaq, sinə yara,

Sözlər dolu qəlbdə qaya.

Həsrət məni yığıb cana,

Sən bunları bilməyirsən.

***04. 03. 2004***

## XƏYANƏT OLDU

Ən gözəl illəri mən sənə verdim,
Səninlə sevinib, sənlə qəm yedim,
Sən öpüş istədin, özümü verdim,
Bunların əvəzi xəyanət oldu.

Unutdum hər şeyi, hər kəsi dandım,
Kor bir ərəb kimi sənə aldandım.
Tanrı hüzurunda günaha batdım,
Bunların əvəzi xəyanət oldu.

Səni sevdiyimi dedim min kərə,
Deməyim az gəldi, etdim əməl də.
Gözümə qaradan çəkdim bir pərdə,
Bunların əvəzi xəyanət oldu.

***01.11.2008***

## SƏN UTANMADIN

Nə bir xəbərin var, nə də bir səsin,
Olmaya küllənib yox olub sevgin?!
De, kimə bir daha yalan vəd verdin?!
Məni utandırdın, sən utanmadın.

Sinəmdə min ahım, naləm dolaşır,
Ətrafda doğmalar mənə yadlaşır.
İçimdə şeirimlə qələm dalaşır,
Məni utandırdın, sən utanmadın.

Səni soruşurlar hər addımbaşı,
Yamanca ağırmış sevgimin daşı.
Mənə həmdəm oldu acı göz yaşı,
Məni utandırdın, sən utanmadın.

***20. 05. 2007***

**DEYİRDİK**

Deyirdik, ölüm də bizi ayırmaz,
Bilmirdik,bircə söz təkan olarmış.
Deyirdik, sevgimiz əbədi bahar,
Bilmirdik,gün gələr, qarlar yağarmış.

Sevgimiz neçə yol, dağlar aşsa da,
Uçurumda qaldı biz itələdik.
Bir məşəl kimi qəlbdə yansa da,
Onun sönməsini tək biz istədik.

Artıq ağlamaq da, yaraşmaz bizə,
Özümüz yıxıldıq nə ağlayırıq?
Bir sınıq körpü var dünənimizə,
Bu gündən onu da dağıtmalıyıq.

***18. 12. 2005***

**YAMAN QORXURAM**

Gəlmisən ömrümə vaxtsız, zamansız,

Mən səni sevməyə yaman qorxuram.

Günah səndə deyil, nə də ki, mən də,

Zamanın hökmündən yaman qorxuram.

İncimə, söz verə bilmərəm sənə,

Sevirəm sözünü nə olar, demə.

Sevirsən,  sevgini göstər hər dəfə,

Saxta, boş vədlərdən yaman qorxuram.

Möhnət istəyirəm qəddar zamandan,

Sevgi yox, mərdlik versin taxtından.

Bezmişəm günü günə satmaqdan,

Xəyala dalmaqdan yaman qorxuram.

Gücüm yox çəkməyə yenə bir yükü,

Hissim yaşımdan daha böyükdü.

Nöqsanım sənə yox, özümə düşdü,

Bir daha yanmaqdan yaman qorxuram.

***22. 04. 2011***

## VİDA

Vidaya gəlmişəm səninlə sanki,

İlk görüş günüdür nədəndi, görən?

Gözümdən ayrılıq yaşları axır,

Sevincdən sanacaq bu yaşı görən.

Nə yaman sındırdın qol-qanadımı

Bu vida günündə son baxışınla.

Gəl, apar sevgini, apar andını,

Səni buraxıram tək Allahınla.

Son sözü istəmə, məndən hökmün yox

Son sözü vağzalı deyəcək sabah.

Qəlbimdən nigaran qalarsan əgər,

Baxarsan əriyən o iki şama.

***25.07.2007***

## DAHA GÜCÜM YOX

Yaman yorulmuşam, daha yox gücüm,

Vicdanım ağlayır, mən necə gülüm?!

Yorulub, taqətdən düşübdür könlüm,

Səni qazanmağa daha gücüm yox.

Sənə gəl-gəl deyib, ağladım hər dəm,

Əğyarı yar bilib olmadın həmdəm,

Zaman qarşısında artıq acizəm,

Səni qazanmağa artıq gücüm yox.

Sevgi mənim üçün yalan əfsanə,

Sevgi mənim üçün məchul sərdabə,

Sevgi mənim üçün sonda üç nöqtə,

Nöqtəni qoymağa daha gücüm yox.

***10. 11. 2009***

## SƏNİN ÜÇÜN AĞLAMIRAM Kİ

Nə gəlib durmusan gözüm önündə?

Bir zaman sevmişdim gizlətmirəm ki!

Zərrə məhəbbətim qalmayıb sənə,

Sənin üçün ağlamıram ki!

Xoş nəğmə kimi oxundun, bitdin.

Mən bu bəstəni yox saymıram ki!

Sən uzaq oldun, sən gözdən itdin

Sənin üçün ağlamıram ki!

Soruşsan göz yaşı nədən tökürəm,

Deyərəm, səndən çəkinmirəm ki!

Zamana, bəxtə, eşqə küsürəm.

Sənin üçün ağlamiram ki!

***12. 07. 2012***

**SEVƏ BİLMƏRƏM**

Gözündəki kədər kimə görədir?

-Soruşma, səbəbin deyə bilmərəm.

İstəsən varlığım bütün sənindir.

Bağışla, bir daha sevə bilmərəm.

Qazandın hörməti hərəkətinlə,

Gətirdin ruzumu bərəkətinlə.

Qəbul etdin məni qəbahətimlə,

Bağışla, bir daha sevə bilmərəm.

***28.04.2008***

## TƏNHALIQ MƏQAMIN

Gözümdəki yaşlar mənə verdiyin

Acı xatirə tək qəlbdə qalacaq.

Sən heç üzülmə mənim halıma,

Sənin halına yadlar yanacaq.

Çəkdiyim ahu-zar bir gün səni də

Rəbbin qəzəbinə tuş gətirəcək.

Nə vaxt aşiq olsan cavabsız qalıb

Səni sevməyəni könlün sevəcək.

Dəstəyi atdığın gün yadımdadır,

Həmin gün sənsizlik nidası idi.

Sənin bu gedişin mənimçün bir dərs,

Səninsə tənhalıq məqamın idi.

***08. 09. 2005***

## XOŞUNA GƏLİRSƏ

Gecələr yatmayıb səssiz ağlamaq,
Gündüzlər gecə tək qara bağlamaq,
Hər addım başında səni aramaq,
Xoşuna gəlirsə, qoy, sənin olsun!

Nagüman qalaraq hər gün dərd çəkmək,
İllərlə cavabsız tək səni sevmək,
Sonu görünməyən yolları getmək,
Xoşuna gəlirsə, qoy, sənin olsun!

Yalan yalvarışa, sözə inanıb,
Deyilən andlara, vədə aldanıb,
Ürək külə dönüb, alışıb, yanıb,
Xoşuna gəlirsə, qoy, sənin olsun!

Özünü əmanət etmək əllərə,
Ruhunu tapşırmaq uca göylərə,
Yanılmaq ən azı gündə min kərə,
Xoşuna gəlirsə, qoy, sənin olsun!

***26. 11. 2009***

## YAMAN ÇOX SEVMİŞƏM SƏNİ

Sirdaşım bir özüm, bir də ki, aydır,
Sənsiz keçən gecəm mənə məzardır.
Əllərim soyuqdur, nə olsun yaydır,
Sən demə, yaman çox sevmişəm səni.

Bu eşqin yasını mən saxlamışam,
Sənsiz bir an səni unutmamışam.
Təsəllimi ağ vərəqdə tapmışam,
Sən demə, yaman çox sevmişəm səni.

Əlvida demədən getdin dünyamdan,
O gündən əlimi üzdüm sabahdan.
Gün gələr xəbərin olar halımdan,
Sən demə, yaman çox sevmişəm səni.

Yaman əzazilsən, yaman qəddarsan,
Yaşanan ömrümün xəyal anısan.
Sən mənim içimdə yaşanan cansan,
Sən demə, yaman çox sevmişəm səni.

***23. 07. 2005***

## GECƏLƏR

Sizsiniz könlümün ən yaxın dostu

Ömrümün acılı dəmi, gecələr!

Siz mənə göstərin unutmaq yolu,

Gözümün çağlayan nəmi, gecələr!

Pənahını sizdən umur tənhalar,

Sizlərə sığınır unudulanlar.

Sizlərlə sağalır ancaq yaralar,

Hər kasə bir məlhəm olan, gecələr.

Ayınla sirdaşdır, gör neçə qəlblər,

Çiynınə uzanır titrəyən əllər.

Sizlərə üz tutur sınan ürəklər,

Məni mənə sirdaş edən gecələr.

***08. 06. 2005***

## ƏGƏR

Əgər bu sevginin sonu ayrılıq olarsa,
İndidən gəl görüşməyək.
Əgər bu hisslərə hicran yağışı yağarsa,
İndidən gəl sevinməyək.

Əgər hər sözünün əvvəli yalan,
Sonu andlarla dolu olarsa,
Əgər bu duyğunun avazı yaman,
Nəticə yamandan yaman olarsa,
İndidən ümidlər gəl cücərtməyək.

Əgər sevirsənsə, sevgini göstər.
Hər addım başında sevirəm demə.
Sevirsən, sevgini ömrümə göndər,
Mənə gələcəyəm nə vaxtsa demə.

Əgər sevirsənsə, gəl, qazan məni,
Demə, görək tale, qismət nə edər.
Bu qədər çətindir anlamaq məni?
Əgər sevirsənsə, sevgini göstər!!!

***10. 05. 2010***

## DÖZƏR ÜRƏYİM

Qəm üstə qəm gələr, yaş üstünə yaş,
Sən idin istəyim, sən idin sirdaş.
Yenə də arzuma ataram bir daş,
Eybi yox, buna da dözər ürəyim.

Sevgidən küsmüşdüm, sənlə barışdım,
Sənin nəfəsinə yaman alışdım.
Sənsizlik odunda yandım, alışdım
Eybi yox, buna da dözər ürəyim.

Qəm yükü daşıyan karvan olmuşam,
Dilimdə sözlərim susub donmuşam.
Xəzanlı bağ kimi xəzəl olmuşam,
Eybi yox, buna da dözər ürəyim.

***19.05.2009***

## GƏL

Gəl, sənsiz dünyama, gör sənsizliyi,

Necə də dərindən qarşılayıram.

Gəl, sənsiz dünyama, gör kədərimi,

Necə mən qəlbimə aşılayıram.

Gəl, bu acıları yaxından gör sən,

Bax, sənsiz dünyama!

Dözə bilərsən?

Gəl, apar hicranı, vüsalı qaytar.

Gəl, apar özünü, özümü qaytar.

Sənə gəl demirəm,

gəl,

dərdlərimi apar.

***17. 01. 2009***

## DOSTUM

Ürək sözə baxmır,həyatsa fani,

Puç edir ümidi, məhv edir eşqi,

Vermə bir kimsəyə ürək sirrini,

Güvənmə həyata, güvənmə, dostum!

Unut sən keçmişi, baxma sabaha,

Sevib yanacaqsan, sevmə bir daha.

Səbr elə, hər şeyi burax zamana,

Tələsmə həyatda, tələsmə, dostum!

***28.09.2009***



## GÖRDÜM SƏN KİMSƏN

Son görüş soyuqluq səpdi içimə,

O gözlər yad kimi durdu önümdə.

Sən belə baxmırdın illərdi mənə,

Soyuq baxışınla gördüm, sən kimsən.

Sevdim, sonunu heç düşünmədən,

İsindim oduna heç üşümədən.

De, niyə tərk etdin, de, məni nədən?!

Səbəbsiz gedişlə gördüm, sən kimsən.

Ötəri hiss idi, yaşandı dedin,

Xoşbəxt ol, layiqsən sevgiyə dedin.

Mən sevə bilmərəm sənin tək, dedin.

Bu son sözlərinlə gördüm, sən kimsən.

Arzular qoynunda yatıb qalmışdım,

Özümdən mən sənə çox inanmışdım.

Vəfasız, nə deyim, nədən danışım?!

Dediyin sözlərlə gördüm, sən kimsən.

***03. 02. 2003***

## YAŞAYACAQSAN

Demə ki, qalmaram sənsiz dünyada,
Həyatın işidir, bacaracaqsan.
Demə ki, ölərəm sənsiz dünyada,
Həyat çox şirindir, yaşayacaqsan.

Ağlasan küləklər silər gözünü,
Yağışlar yetirər sənə sözümü.
Dilinə gətirmə ölüm sözünü,
Həyat çox şirindir, yaşayacaqsan.

Ürəyin buz tutsa günəşə üz tut,
Gözlərin qaralsa çəkilər bulud.
Zirvədən yamaca enməyi unut,
Həyat çox şirindir, yaşayacaqsan.

Mən ki, vəhy deyiləm, içinə hopum,
Mən hissəm, yarandım, yaranıb donum.
Düşünmə sonuna çatıbdır yolun,
Həyat çox şirindir, yaşayacaqsan.

***04. 05. 2010***

## SƏNSƏN GÜNAHKAR

Sən gedən o gündən mən tamam sənəm,
Yanıram sevgimin tüstüsündə mən.
Bilirəm, qəribə səslənir cümləm,
Sənsən günahkarı qırıq cümləmin.

Öz ürəyim öz sinəmi istəmir,
Əllərim sənsiz heç də isinmir.
Gözlərim güzgüdə məni bəyənmir,
Sənsən günahkarı bu əziyyətin.

Yaddaşım nömrəni unutmayıbdır,
Bu zülm heç yerdə yazılmayıbdır.
Ağlamaq könlümü ovutmayıbdır,
Sənsən günahkarı bu qəbahətin.

Sənsiz keçən günlər ömürdən deyil,
Mənimçün belədir, səninçün deyil.
Yalvarım deyirsən? - o mənlik deyil,
Sənsən günahkarı bu xəcalətin.

***17.11.2007***

## GÖRƏN HARDASAN

Ağlayanda göz yaşımı silənim,
Olmadı ki, ağlayanda bir deyim,
Çarəsizəm, de, kimlərə əl verim,
Dərdimin çarəsi, görən hardasan?!

Əyildi qürurum yadlar önündə,
Yox oldu inamım, bir bilsən niyə?
Görəsən, mən kiməm sənin gözündə?
Sirrimin ümmanı, görən hardasan?!

Demirəm, asandır səni unutmaq,
Demirəm, çətindir yaddan çıxarmaq,
De, nə qazandırdı məni aldatmaq?!
Yalançı baharım, görən hardasan?!

***15. 01. 2011***

**DARIXDIM**

Dünənim üçün darıxdım,

Bu günümə baxanda.

Gəncliyim üçün darıxdım,

Ağ saçıma baxanda.

Darıxdım məhəllədəki o tut ağacı üçün,

Qarşımda min neməti, quş südünü dadanda.

Darıxdım qəhqəhələr dolu dünyam üçün,

Sükuta qərq olmuş gecələr yaşananda.

Darıxdım keçmişim üçün,

Sabahı düşünəndə.

Darıxdım hər günüm üçün,

Hər gün gecə düşəndə.

Mən sənin üçün darıxdım,

Ey əlçatmaz gəncliyim!

Özüm üçün darıxdım,

Heç bilmirəm, nə edim.

***03. 10. 2009***

## SƏNİN ACIĞINA

Özümü aldatdım, özümü dandım,

Zaman qarşısında zaman yaratdım.

Ağladım, büküldüm, sınmadım, qalxdım.

Sənin acığına yaşayıram mən.

Bacarsan, xoşbəxt ol, qarğış etmirəm,

Mən səni sevmirəm, nifrət edirəm.

Sevgidən küsmədim, yenə sevirəm.

Sənin acığına sevəcəyəm mən.

***14. 08. 2008***

## SƏN İSTƏ MƏNDƏN

İstə sənin üçün ocaq olaram,
Odumu söndürsən küllə yanaram.
Səni isidərəm özüm donaram,
Təki isinməyi sən istə məndən.

Yolları ovcuma yığıb gələrəm,
Dağı, dərələri yıxıb gələrəm,
Tikanlı məftili qırıb gələrəm,
Təki gəlməyi sən istə məndən.

Bir libas tikərəm büsbütün güldən,
Səsi borc alaram şeyda bülbüldən,
Saçımı hörərəm sarı sünbüldən,
Təki bəzənməyi sən istə məndən.

Sevgimi edərəm hər kəsə əyan,
Olmaz bu eşqi eldə duymayan,
Səni sevgimlə sararam hər an,
Təki sevilməyi sən istə məndən.

***07. 07. 2009***

**DÜŞÜNMƏ**

Sənsiz yaşamağı bilməsəm də mən,

Qarşında ağlayıb əyilməyəcəm.

Gözümün yaşını görməsən də sən,

Düşünmə ki,sənsiz keflər çəkəcəm.

Görməzsən gözümdən axan selləri,

Arxanca hönkürüb hey ağlayacam.

Önündə şad-xürrəm görsən də məni,

Düşünmə ki,sənsiz xoşbəxt olacam.

***06. 06. 2002***

## NƏ OLDU

Deyirdin, həyatım sənə bağlıdır,

Nə oldu, bu düyün nə tez açıldı?

Deyirdin, gözlərim heç kəsi görmür,

Nə oldu, gözlərin nə tez açıldı?

Deyirdin sevgimiz əbədi bahar,

Sənsə çiçəklərin ən gözəlisən.

Sinəmdə çağlayır coşqun bir qubar,

Nə oldu, deyirdin, sən tək mənimsən?

***31. 05. 2003***

**SƏNİ TAPA BİLMƏDİM**

Səssiz küçələrdə, soyuq otaqda,

Tənha bir söyüdün pıçıltısında,

Sənsiz titrəyən dodaqlarımda,

Hər nə tapdım, səni tapa bilmədim.

Mən səni unuda bilmədim heç vaxt,

Şah tək qurumusan, ürəyimdə taxt,

Getdiyin o yoldan bir zaman, bir vaxt

Hər nə tapdım, səni tapa bilmədim.

Ömür kitabını hey vərəqlədim,

Sənli nəğmələri bir-bir dinlədim.

Kimləri kəşf etdim, kimi itirdim,

Hər nə tapdım, səni tapa bilmədim.

***01. 03. 2009***



## MƏN SƏNƏ İNANDIM

Tanrıdan sonra tək inandığım,

Nə oldu, əhdinə dönük çıxdınmı?

Ey, mənim nur dolu açan sabahım!

Səndəmi hilalda lövbər saldınmı?

Mən sənə inandım,

Necə son yarpaq,

ağaca tutunub bər-bərk sarılır.

Mən sənə inandım,

Necə bir uşaq,

ananın qoynunda rahatlıq tapır.

***03.06.2010***

## VECİNƏ ALMADI BU ADAM MƏNİ

Cavanlıq göz açıb yumunca getdi,

Qara saçlarımda ağ dənlər bitdi.

Onunçün dizlərim yerlərə dəydi,

Vecinə almadı bu adam məni.

Açılan səhərdə, gecələrimdə,

Sözümdə, söhbətdə, bütün cümləmdə,

Xəyalı qəlbimdə, cismi gözümdə,

Vecinə almadı bu adam məni.

Titrək yarpaq oldum, əsən meh oldum,

Yoluna nur saçan asiman oldum,

O bunu bilmədi mən isə o oldum,

Vecinə almadı bu adam məni.

***30. 01. 2010***

## UNUTMARAM

Hamıya deyirəm, unutmuşam mən,
Yalançı olmuşam artıq aləmə.
Deyirəm, ilk gündən qazanmışam mən,
Qorxuram alçalam mən sənə görə.

Özümü məğrur tuturam sənsiz,
Elə bil, bu sevgi heç vaxt olmayıb.
Gecələr ağlaram səssiz-səmirsiz,
Bu gündən sabaha ümid qalmayıb.

Sənin haqqında danışılan kimi,
Üzümü çevirib gülümsəyirəm.
Heç nə deməyirəm yad insan kimi,
Heç kim də bilməyir, səni sevirəm.

Bir dəli qürur var içimdə mənim,
Yolumda dağ olub, dərə olubdur.
İçimi ovanda sənin həsrətin,
Təsəllim tək aylı gecə olubdur.

Qoy, heç kəs bilməsin mənim dərdimi,
Bu dərdi içimdə sirr tək saxlaram.
Unutsun el-aləm mənim sevgimi,
Bu eşqi heç zaman mən unutmaram.

***04. 09. 2004***

## SƏNİ SEVƏN BİRİ VARDIR

Sənin gözlərinlə dünyanı görən,
Sənin ürəyini öz qəlbi bilən,
Ağlasan ağlayan, güləndə gülən,
Səni sevən biri vardır.

Keçmişi çirkabdır bataqlıqlar tək,
Nə etsin ki, sevir yenə bu ürək?!
Sənin üçün yaşayır o inan tək,
Səni sevən biri vardır.

Göz yaşı axıdır gecədən sübhə,
Uzanıb əlləri çatmayır sənə.
İçi qan ağlayır, deməyir sənə,
Səni sevən biri vardır.

Unutmur etdiyi o xətaları,
Köksündə daşıyır acılarını,
Gizlicə saxlayır arzularını,
Səni sevən biri vardır.

***08. 07. 2007***

## PAK DUYĞU KİMİ

Nə günəş isidir, nə alov məni

Sənin qolların isidən kimi.

Nə tənqid, nə təhqir yandırır məni

Səbəbsiz gedişin yandıran kimi.

Özünlə apardın gülüşümü sən,

Sən mənim dünyamda yeganə dərdsən.

Bilmirəm, şeytansan, yoxsa mələksən,

Görürdüm mən səni bir mələk kimi.

Nə deyim, bilmirəm, bəlkə mən səhvəm,

Səninlə sənsiz də mən səninləyəm.

Bildim ki, büsbütün yalanmışsan sən,

Mən səni yaşatdım pak duyğu kimi.

***13. 07. 2009***

## BU SEVGİNİ MƏN YUXUMDA GÖRMÜŞƏM

Özünə qısqanar öz sevgisini,

Söz deməz, qorxar ki, qırar qəlbini.

Cəhd etməz tutmağa o əllərini,

Bu sevgini mən yuxumda görmüşəm.

Xəyanətdən uzaq, yalandan kənar,

Çovğunda, boranda çiçəkli bahar,

Əbədi məşəl tək hər zaman yanar,

Bu sevgini mən yuxumda görmüşəm.

Külək tək sərhədsiz, səma tək təmiz,

Öpüşü müqəddəs, yaşayar izsiz,

Körpə uşaq kimi şıltaq, səbrsiz,

Bu sevgini mən yuxumda görmüşəm.

Titrək nəfəs ilə sevirəm deyər,

Deyəndə vücudu şam tək əriyər,

Sevgisi yolunda ölümə gedər,

Bu sevgini mən yuxumda görmüşəm.

***03. 03. 2011***

**SƏN YOXSAN**

Sənsiz hər bir günüm qəmdir, kədərdir,

De, mən sənsizliyə necə dözəcəm?!
Bilmirəm, sən necə qala bilirsən,
İnan ki, mən sənsiz, vallah, öləcəm!

Ah çəkdim, fəryadım qalxdı göylərə,
Düzdə lalə duydu, sənsə duymadın.
Köksümdə tufanla qopan sellərə,
Qara daş oyandı, sən oyanmadın.

Hardasan bivəfa, səs ver səsimə,
Od tutub sinəmdə odlanır yaxam.
Hardasan, ilk sevgim, möhtacam sənə?!
Sən yoxsan, mən özüm də heç yoxam.

***20. 04. 2006***

**SƏNİ DÜŞÜNÜRƏM**

Gecələr qəlbimə kölgələr salır,

Həsrətin könlümü yaman yandırır.

Bilirəm, gözlərin özgəyə baxır,

Səni düşünürəm, sən bilməsən də.

Yatıb röyalarda səni görürəm,

Gündə min kərə sənsiz ölürəm.

Qəlbdə qəm olsa da, üzdə gülürəm,

Səni düşünürəm, sən bilməsən də.

Yalançı baxışa satdın sevgimi,

Aldatdın uşaq tək sevən qəlbimi,

Göylərə qaldırdın ağlar naləmi,

Səni düşünürəm, sən bilməsən də.

Eşqimizi verdin özgə əlinə,

Alçaltdın sevgini sən gündən günə,

Xəyallar yox oldu bir bilsən niyə?

Səni düşünürəm, sən bilməsən də.

***16. 12. 2002***

## HEÇ ZAMAN ÖZÜMÜ ŞAİR SANMADIM

Heç zaman özümü şair sanmadım
Qəlbimdən gələni yazıram, dostum!
Ağ vərəqlər, qələm tək sirdaşımdır,
Gizli hisslərimi yazıram, dostum!

Qınamayın məni, gülməyin mənə,
Heca, vəzn, əruz deməyin mənə.
Bunun üçün bir məktəb göstərin mənə,
Çağlayan duyğumu yazıram, dostum!

Gecələr sükuta qərq olan zaman,
Gözlərim zülmətlə qovuşan zaman,
Tənhalıq içində boğulan zaman,
Axan göz yaşımı yazıram, dostum!

***23. 12. 2010***

# Mündəricat


Fəxr edirəm ............................................................ 11

Sevgi deyilmi............................................................ 12

Ana mənə nağıl danış ..................................................... 14

Qoy məni anlatsın bu şeirlərim ........................................ 16

Mənim ilhamım .............................................................. 17

Doğma Bakım ................................................................... 18

Sən ..................................................................................... 19

Təbiətdən ........................................................................ 20

Bəs niyə mən səni sevirəm hələ ....................................... 22

Ana ..................................................................................... 23

Məhəbbət............................................................................ 25

Qurban olduğum ............................................................... 26

İncidim ............................................................................... 27

Mən səni sevirəm mənim həyatım.................................... 28

Gecikdin.............................................................................. 29

Ovuclarım ağlayır.............................................................. 31

Eşqim ................................................................................. 32

Demə mənə ....................................................................... 33

Sən mənə lazımsan........................................................... 34

Qara gözlüm ..................................................................... 35

Mənim təkcə vüqarım var ................................................ 36

Məhəbbət romanı ............................................................. 37

Sən özgə birini gəlin edən gün ......................................... 38

İstəsəm ....................................................................39
Özümü qaytar mənə........................................................40
Sən o deyilmişsən ...........................................................42
Səndən yadigar .............................................................44
De hansı sevgidən danışırsan sən......................................45
Heyfim gəlir .................................................................46
Yaşa insan tək ..............................................................47
Mənim nakam xəyallarım .................................................48
Gecə bəhanə ................................................................49
Həsrətindəyəm .............................................................50
Ey dünya .....................................................................51
Məni əzablardan qurtar ...................................................52
Əfv etdim hər kəsi özümdən başqa.....................................53
Daha möcüzədir ............................................................54
Sadəcə sevdim...............................................................55
Özündən soruş...............................................................56
Sənə necə xitab edim .....................................................57
Öyrənərdim ..................................................................58
Nifrət ..........................................................................59
Yadında saxla ................................................................60
Xilas et məni .................................................................61
Təki səndən ayrılmayım....................................................62
Sənsiz heçəm mən ..........................................................63
Xəbərin varmı ................................................................64
Sən olmadınmı................................................................66
Olmayıb .......................................................................67
Nakam sevgim ...............................................................68
Mənə sevməyi öyrədin .....................................................69

Nə dəyişəcək ........................................................................70

Sən mənə nə verdin ..............................................................71

Gecə günəşim .......................................................................72

Layiq deyilsən .......................................................................74

Bizi ölüm ayırar.....................................................................75

Geri qayıtma ..........................................................................76

Get .........................................................................................77

Gələcəksən bu gün gəl .........................................................78

Gün gələr ..............................................................................79

Demə ki vəfasız mənəm .......................................................80

De necə unudum ...................................................................81

Bəlkə də bu görüş məhəbbət oldu ........................................82

Ayrılmalıyıq...........................................................................83

Mən ağlarkən sən güldün......................................................84

Hünərin var............................................................................86

Hönkürüb ağlasam dönərsənmi sən.....................................87

Olarsa ....................................................................................89

Əlvida gəncliyim ...................................................................90

Gözlərin .................................................................................91

Mən də xoşbəxt olacağam ....................................................92

Biz gərək əvvəldən görüşməyəydik .....................................93

Gəl gedək göylərə.................................................................94

Mən bir qadın tanıdım...........................................................95

Getsən ölərəm demərəm .......................................................96

Görüşdük  Ayrıldıq................................................................97

Oyuncaq deyil, bil, sənə olan eşq .........................................98

Öyrətdin mənə ......................................................................99

Gizli eşq ................................................................................100

Dustaq olmuşam ............................................................101

Eybi yox ....................................................................102

Çökərəm diz................................................................103

Bilsəydin ....................................................................104

Gedirəm, istəsəm, istəməsəm də......................................105

Necə bacarım ..............................................................106

Geri dön......................................................................107

Əlvida ........................................................................108

Nə deyim ....................................................................109

Dəyişmə daha ..............................................................111

Səni Allahım bağışlamayacaq ...........................................112

Heç kim......................................................................113

Unuda bilmədim............................................................114

Soyuma məndən ............................................................115

Yandıracağam ..............................................................116

Sən bunları bilməyirsən...................................................117

Xəyanət oldu ...............................................................118

Sən utanmadın .............................................................119

Deyirdik .....................................................................120

Yaman qorxuram...........................................................121

Vida..........................................................................122

Daha gücüm yox............................................................123

Sənin üçün ağlamıram ki... ..............................................124

Sevə bilmərəm..............................................................125

Tənhalıq məqamın .........................................................126

Xoşuna gəlirsə .............................................................127

Yaman çox sevmişəm səni...............................................128

Gecələr ......................................................................129

Əgər ........................................................................ 130
Dözər ürəyim ........................................................................ 131
Gəl ........................................................................ 131
Dostum ........................................................................ 133
Gördüm sən kimsən ........................................................................ 134
Yaşayacaqsan ........................................................................ 135
Sənsən günahkar ........................................................................ 136
Görən hardasan ........................................................................ 137
Darıxdım ........................................................................ 138
Sənin acığına ........................................................................ 139
Sən istə məndən ........................................................................ 140
Düşünmə ........................................................................ 141
Nə oldu ........................................................................ 142
Səni tapa bilmədim ........................................................................ 143
Mən sənə inandım ........................................................................ 144
Vecinə almadı bu adam məni ........................................................................ 145
Unutmaram ........................................................................ 146
Səni sevən biri vardır ........................................................................ 147
Pak duyğu kimi ........................................................................ 148
Bu sevgini mən yuxumda görmüşəm ........................................................................ 149
Sən yoxsan ........................................................................ 150
Səni düşünürəm ........................................................................ 151
Heç zaman özümü şair sanmadım ........................................................................ 152

***www.facebook.com/nigarismayilqizi***

***nigar_ismayilqizi@mail.ru***

*«Elm və Təhsil» nəşriyyatının direktoru:*
*professor Nadir MƏMMƏDLİ*

*Kompüter dizayneri:* **Zahid Məmmədov**

*Texniki redaktor:* **Rövşanə Nizamiqızı**

Yığılmağa verilmiş **05.08.2012**

Çapa imzalanmış **15.09.2012**

Şərti çap vərəqi **10.** Sifariş **№ 508**

Kağız formatı **70x100 1/32.** Tiraj **300**

***Kitab*** *«Elm və Təhsil»* ***nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.***
*E-mail: elm_ve_tehsil@box.az*
***Tel: 497-16-32; 050-311-41-89***
***Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.***